**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “AZƏRBAYCANIN REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Əzimova Aysel Vahid**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**_________________________ imza**

**“____” _______________ 2022-ci il**

# “AZƏRBAYCANIN REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060404 - İqtisadiyyat
**İxtisaslaşma:** Turizm iqtisadiyyatı
**Qrup:** 84

**Magistrant:**
**Əzimova Aysel Vahid**

**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Asiman Quliyev Aydın**

**______________________imza**

**Proqram rəhbəri:**

**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**_________________________ imza**

**Kafedra müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________imza**

**BAKI – 2022**

## Elm andı

Mən, Əzimova Aysel Vahid and içirəm ki, "Azərbaycanın regionlarında kurort-sağlamlıq turizminin mövcud vəziyyətinin təhlili və inkişaf perspektivləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**AZƏRBAYCANIN REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ**


**XÜLASƏ**

**Tədqiqatın aktuallığı: Ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsilə bağlı işlənib hazırlanan proqramlar, milli iqtisadiyyatda seçilən yeni inkişaf strategiyası turizm sektorunun iqtisadi əhəmiyyətliliyini daha da artırmışdır. Respublikamızın mövcud rekreasiya-turizm imkanlarının, iqlim-balneoloji ehtiyyatlarının sağlamlıq turizmi üçün əlverişli olması məlumdur. Hələ ötən əsrdən ölkənin bəzi regionları müalicə turizmi üzrə ixtisaslaşmışdır. Müstəqillikdən sonrakı dövrdə isə neft-qaz sənayesinə əsaslanan milli iqtisadiyyatda bu sektor nisbətən kölgədə qalmışdır. Kurort-sağlamlıq turizminin dünya miqyasında sürətlə inkişaf etdiyini nəzərə alaraq, Azərbaycanda bu sektorun mövcud vəziyyətinin araşdırılmasına və inkişaf perspektivlərinin müəyyən edilməsinə ehtiyac var.**

**Tədqiqatın məqsədi: Tədqiqatın aparılmasında məqsəd ölkəmizin kurort-sağlamlıq turizmin mövcud vəziyyətinin araşdırılması və sektorun inkişaf istiqamətlərinin müəyyən edilməsidir**

**İstifadə olunmuş tədqiqat metodları: Mövzunun tədqiqi zamanı tarixi, analiz və sintez, qruplaşdırma, müqayisəli təhlil və statistik metodlardan istifadə edilmişdir.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat işinin aparılmasında Statistika Komitəsinin, Sosial İnnovasiyalar Mərkəzinin, Dövlət Turizm Agentliyinin, Beynəlxalq Turizm Təşkilatının rəsmi səhifələrindən alınmış informasiyalardan, habelə müvafiq qərarlardan, fərmanlardan, qanunlardan, elmi iqtisadi nəşrlərdən, iqtisadi dərsliklərdən, məqalələrdən və sair informasiya bazası kimi istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Ölkəmizdə kurort-sağlamlıq turizmi ilə bağlı statistik məlumatların əlçatan olmaması tədqiqatı məhdudlaşdıran başlıca faktordur.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın elmi yeniliyi sektorun problemlərini və çatışmazlıqlarını müəyyən etməsi və inkişafı təmin edəcək təkliflər irəli sürməsidir. Xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq istiqamətlərinin təyin edilməsi əsas praktik nəticələrdir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Kurort-sağlamlıq subyektlərinin maarifləndirilməsində, müvafiq elmi işlərin yazılmasında vəsait kimi istifadə edilə bilər.**



***Açar sözlər: sağlamlıq turizmi, kurort-sağlamlıq, regionlarda turizm, tibbi turizm.***

# ANALYSIS OF THE CURRENT SITUATION OF RESORT-HEALTH TOURISM IN THE REGIONS OF AZERBAIJAN AND DEVELOPMENT PERSPECTIVES


## SUMMARY

**Relevance of the research: Development of programs for the development of the non-oil sector in our country, a new development strategy of selection in the national economy, further increasing the economic development of the tourism sector. It is possible that the existing recreational and tourism opportunities, climatic and balneological resources of the republic are suitable for health tourism. Starting from time to time, you can specialize in medical tourism in the main regions. In the post-independence national economy, which is based on the oil and gas industry, this sector has remained relatively shady. The global image of health resorts can be developed, and there is a need to study the current state of this sector in Azerbaijan and develop development prospects.**

**Availability of research: The purpose of the research is to study the current state of tourism and the development of the sector.**

**Research methods used: History, analysis and synthesis, grouping, education and use of statistical methods in the research of the topic.**

**Research database: Information on the official website of the Statistics Committee, the Center for Social Innovations, the State Tourism Agency, the International Tourism Organization can be used as a database, data, decrees, laws, scientific and economic publications, economic textbooks, information and other databases.**

**Limitations of the study: The study of statistical data on stability health in our country may be limited.**

**Scientific innovation and practical results of the research: Proposals for the development and improvement of problems and shortcomings in the field of scientific innovation of research should be put forward. These are the main practical results of application management in the study and application of external experience.**

**In areas where the results can be used: It can be used in the enlightenment of health resorts, in the writing of scientific papers.**



***Keywords: health tourism, health, regional tourism, medical tourism.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **JCI** | Joint Comission International |

# MÜNDƏRİCAT

**GİRİŞ** ........ **8**

**I FƏSİL. TURİZMİN İNKİŞAFINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN ROLU VƏ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI** ........ **11**

1.1. Regionlarda turizmin inkişaf etdirilməsinin iqtisadi əsasları və zəruriliyi ........ 11

1.2. Turizm sahəsində kurort-sağlamlıq turizminin inkişaf zəruriliyi ........ 16

1.3. Turizm sahəsində kurort-sağlamlıq turizminin inkişafı ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi ........ 21

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ** ........ **25**

2.1. Kurort-sağlamlıq turizminin ümumi turizmin inkişafında rolu və əsas prinsipləri ........ 25

2.2. Azərbaycan Respublikası regionlarında kurort-sağlamlıq turizminin inkişafının araşdırılması və təhlili. ........ 31

2.3. Dünya ölkələrinin təcrübələri əsasında sağlamlıq turizminin inkişaf yollarının öyrənilməsi və mövcud problemlərin müəyyənləşdirilməsi ........ 40

**III FƏSİL. AZƏRBAYCAN REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ.** ........ **45**

3.1. Azərbaycan turizmində sağlamlıq turizminin rol və önəminin artırılması ........ 45

3.2. Kurort-sağlamlıq turizminin inkişaf perspektivlərinin qiymətləndirilməsi və dövlətin müalicə turizminə dair siyasəti ........ 51

3.3. Qarabağ bölgəsinin müalicə turizmi sahəsindəki böyük və əhəmiyyətli rolu ........ 58

**NƏTİCƏ VƏ TƏKLİFLƏR** ........ **63**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ **66**

Cədvəllərin siyahısı ........ 71

# GİRİŞ

**Mövzunun aktuallığı:** Yaşadığımız dövrdə dünya ölkələrinin qarşısına qoyduğu əsas məqsəd ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi, import və eksportun artması və ölkəyə daxil olan gəlirin düzgün istifadə edilməsidir. Müasir dövrdə iqtisadiyyatın ən gəlirli və günü-gündən inkişaf edən sahəsi turizmdir. Turizm əslində müasir dünyanın sosial-mədəni,iqtisadi fenomenidir. Turizm - ölkə və ya xarici vətəndaşların müvəqqəti olaraq müalicə, dini, idman, əyləncə, elmi və s. məqsədlərlə öz yaşadığı yeri tərk etməsidir. Turizmin inkişafının ümumi iqtisadiyyatın inkişafında rolu böyük və danılmazdır. Turizmin inkişaf etməsi ölkədə gəlirlərin artmasına,əhalinin rifah halının yaxşılaşmasına, təbii resurslardan istifadə nəticəsində həmin bölgələrin infrastrukturunun yaxşılaşmasına səbəb olur.

Turizmin qloballaşmış və geniş yayılmış sahəsi olan kurort-sağlamlıq turizmi sağlamlıq xidməti və ya məhsulunu almaq üçün bir yerden başqa yerə getməkdir. Sağlamlıq turizminin inkişafı ölkə resurslarından səmərəli istifadə edilməsi,ölkəyə bu turizm xidməti üçün turistlərin cəlb olunması sayəsində ölkənin dünya səviyyəsində tanınması,yeni iş yerlərinin açılmasl ilə əhali arasında işsizliyin azalması,əhalinin həyat səviyyəsinin yaxşılaşması,bu sahənin inkişafı ilə iqtisadiyyatın başqa sahələrinin inkişafına da təkan verməsi və ölkənin turizm ölkəsinə çevrilməsinə şərait yaradır.

Azərbaycan hal-hazırda qeyri-neft sektorunun inkişafı üçün bir çox tədbirlər görmüş, dövlət proqramları hazırlamışdır. Kurort-sağlamlıq turizmi də dövlətin diqqət mərkəzində olan sahələrdəndir. Buna baxmayaraq, Azərbaycanda bu turizm növünün inkişafı üçün kompleks tədbirlər görülməmişdir. Elə məhz buna görə də, məsələnin müasir problemlər və həll yollarına dayanaraq çıxış yollarının tapılması və araşdırılması, nəticələrin analiz edilib qiymətləndirilməsi aktual hesab edilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Tədqiqat zamanı kurort-sağlamlıq turizminin ümumi turizmdə rolu və payı araşdırılmış, bu turizm növünü inkişaf etdirmək üçün metodlar təhlil edilmiş və çıxış yolları ortaya qoyulmuşdur. Azərbaycanda sağlamlıq turizminin genişləndirilməsi yönündə dünya ölkələrinin

beynəlxalq təcrübələri araşdırılaraq, ölkəmizə tətbiq edilməsi metodları irəli sürülmüşdür.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın əsas məqsədi Azərbaycanda kurort-sağlamlıq turizminin indiki vəziyyətinin araşdırılması,turizm resurslarının vəziyyətinin öyrənilməsi və gələcək dövrdə bu sahənin inkişafı üçün uyğun həll metodlarının araşdırılıb tapılmasıdır. Tədqiqatın məqsəd və vəzifələrini aşağıdakı kimi göstərə bilərik :

1. Turizmin inkişafında sağlamlıq turizminin rolunun öyrənilməsi;
2. Azərbaycan regionlarında kurort-sağlamlıq turizminin mövcud vəziyyətinin təhlil ediməsi;
3. Kurort-sağlamlıq turizmi sahəsində beynəlxalq təcrübələrin araşdırıması;
4. Azərbaycanda sağlamlıq turizminin inkişafı üçün metodlar və həll yollarının araşdırılıb tapılması.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyektri Azərbaycan Respubilkasının ayrıayrılıqda regionları, tədqiqatın əsas predtmeti isə bu regionlarda kurort-sağlamlıq sahəsinin müasir vəziyyəti inkişaf istiqamətləri və imkanlarıdır.

**Tədqiqat metodları:** Tədqiqat işi bir neçə metodlardan istifadə edərək tədqiq edilib. Bu metodlardan birincisi və ən əsası təhlil metodudur. Təhlil metodu əsasında Azərbaycanda turizmin mövcud vəziyyəti, kurort-sağlamlıq turizminin ölkənin ümumi turizm sektorundakı payı, bu sahədəki turizm ehtiyatlarının əvvəl və hal hazırdakı vəziyyəti, bu günə qədər dövlətin turizmin bu növünə gördüyü əmək və ayırdığı kapital,turizm ehtiyatlarının yerləşdiyi bölgənin infrasturukturu,həmin bölgədə yerləşən turizm obyektlərinin hal hazırki vəziyyəti araşdırılıb və ümumiləşdirilib.

Tədqiqat zamanı istifadə etdiyimiz digər bir metod isə problemin aydınlaşdırılması metodudur. Bu metod vasitəsilə Azərbaycanda kurort-sağlamlıq turizminin inkişafına maneə olan nüansları araşdırılıb taparaq və həmin problemlərin ən uyğun həlli yolları qeyd edildi.

Risklərin qiymətləndirilməsi metodu. Bu metod sağlamlıq turizmi Azərbaycanda və ya ümumən inkişaf etdirilən zaman yarana biləcək riskli vəziyyətləri tədqiq edir. Risklərin aydınlaşdırılması metodu ilə hər hansı bir riskin baş vermə ehtimalını araşdıraraq, əgər baş tutma ehtimalı varsa təsir səviyyəsini ölçərək ən az zərərlə problemi həll etmə yollarına baxdıq.

Tədqiqat işinin gedişində turizmin bu növünün inkişaf etdirilməsi üçün perspektivli sayılan zonaları aşkar edib,həmin zonalarda nə kimi tədbirlərin görülməli olduğu izah edildi.

**Tədqiqatın informasiya bazası:** Kurort-sağlamlıq turizmi mövzusunda bir çox yerli və xarici yazarların təklifləri və fikirləri araşdırılmış və dəyərləndirilmişdir. Bunlara misal olaraq Arzu Bulut, Halil Şengül, Dr. Mustafa Kemal Kördeve, Özlem Özer, Cuma Sonğur kimi yazar və professorları göstərmək olar. M.Kemalın araşdırmalarına görə sağlıq turizmi növbəti 10 ildə ən çox üstünlük verilən sahə olacaqdır və sektor dünya miqyasında 60 milyard dollar mənfəət payına sahibdir. Bu da o deməkdir ki, kurort-sağlamlıq turizmi uzun illər boyu iqtisadiyyatın ən əsas sahələrindən biri olacaqdır.

**Tədqiqatın mədudiyyətləri:** Azərbaycanda kurort-sağlamlıq sahəsi üzrə kompleks tədbirlərin yaxın keçmişlə çərçivələndiyindən tədqiqatın təhlili zamanı keçmiş statistik məlumatlarının az olmasına gətirib çıxarmışdır ki, bu da araşdırmanın aparılmasında əsas məhdudiyyət hesab olunur.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın gözlənilən elmi nəticəsi olaraq araşdırmalar zamanı yeni fikirlərin əldə olunması, hipotezlərin irəli sürülməsi həyata keçirilir. Gözlənilən odur ki, tədqiqatın sonunda yeni fikirlər ortaya çıxacaq və bu mövzu inkişaf edəcəkdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın praktiki nəticəsi olaraq isə Azərbaycanda sağlamlıq turizminin inkişafı üçün yeni idealar,dünya təcrübəsinin ölkəmizə tətbiq edilməsi yolları nəzərdə tutulmuşdur.

# I FƏSİL. TURİZMİN İNKİŞAFINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN ROLU VƏ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

## 1.1. Regionlarda turizmin inkişaf etdirilməsinin iqtisadi əsasları və zəruriliyi

Qloballaşan dünyada iqtisadiyyatın bəzi sahələri əvvəlki önəmini itirərkən, bəzi sahələr isə gün keçdikcə daha da genişlənərək inkişaf etməkdədir. Turizm sahəsi günü-gündən inkişaf edən və böyüyən sektordur. Turizm – həm abstrakt, həm də gözlə görünən,konkret məhsul istehsal edən bir sahədir. Turizmin izahını bir çox ədəbiyyat fərqli vermişdir. Ümumi olaraq isə, turizm – tətildə olan insanlar üçün nəqliyyat, yaşayış və əyləncə kimi xidmətlər göstərən bir sahədir. Yaşadığımız dövrdə turizm sahəsi ölkələr üçün böyük gəlir mənbəyidir, bir çox ölkələrin iqtisadiyyatının əsasını da elə məhz turizm sahəsi təşkil edir. Ona görə də inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin gələcək strateji planlamasında öz turizm ehtiyatlarından səmərəli istifadə etmək və bu sahəni inkişaf etdirmək əsas yeri tutur.

Müştəri məmnuniyyəti, təhlükəsizlik və ləzzət turizm müəssisələrinin diqqət mərkəzində olduğundan turizm, müştərilərin dəyişən ehtiyaclarına və tələblərinə davamlı uyğunlaşma qabiliyyəti tələb edən dinamik və rəqabətli bir sahədir. Turizm, istehsal, meşə təsərrüfatı və s. kimi sahələrin təyin olunduğu ümumi metodlara əməl etmədiyi üçün turizm sənayesinin ölçüsünü təyin etməyin müxtəlif üsulları mövcuddur. Turizm ziyarətçilərə müxtəlif məhsul və xidmətlər təklif edən müxtəlif sahələr yaradır. Bununla yanaşı, bu müəssisələr yerli sakinlərə məhsul və xidmətlər də təklif edirlər.

Turizm sənayesi ziyarətçi iqtisadiyyatında baş verən bütün fəaliyyətləri əhatə edir. Buraya birbaşa turistlə əlaqəli, bir oteldə qalmaq, yemək sifariş etmək və ya bir turistik məkanı ziyarət etmək kimi fəaliyyətlər daxildir. Buraya dolayı fəaliyyətlər də daxildir. Məsələn, turistin yediyi restorana yemək çatdıran nəqliyyat şirkəti və ya otellə müqaviləsi olan çamaşır şirkəti. Turizm sənayesindəki bu kimi sektorlara əlavə olaraq bəzilərinin adını da çəkək: nəqliyyat, aviaşirkət sənayesi, avtomobil kirayəsi, su

nəqliyyatı, bələdçi servisi, otel, hostel, yeyinti sənayesi, restoran sahəsi, əyləncə, alış-veriş, turist turları, turagent və tur operatorlar.

Turizm bir ölkənin tam böyüməsinə və inkişafına kömək edir: birincisi, çoxsaylı iqtisadi dəyərlər və faydalar gətirməklə; İkincisi, ölkənin marka dəyərini, imicini və şəxsiyyətini inkişaf etdirməyə kömək etmək. Turizm sənayesi cəlbedici istiqamətlərdən kənara çıxaraq iqtisadi böyüməyə əhəmiyyətli bir töhfə verir.

Əvvəldə qeyd etdiyim kimi, turizm sənayesi ölkələr üçün böyük gəlir mənbəyidir. Əlbəttə ki, turizmin inkişafının gəlirdən başqa da bir çox müsbət tərəfləri vardır (https://greentumble.com/positive-impacts-of-tourism-on-environment/, 2021):

- İşlə təminetmə. Otellər, barlar, nəqliyyat, fəaliyyətlər, mağazalar və restoranların hamısı işçilərə ehtiyac duyur. Turizm insanlar üçün çox lazımlı məşğulluq təmin edə bilər;

- İnfrastruktur. Yollar, dəmir yolu şəbəkələri və yerli tibb və təhsil müəssisələri kimi infrastruktur investisiyaları üçün təşviq edir;

- Ətraf mühit. Həm şəhər, həm də kənd yerlərində ətraf mühiti qorumaq və yenidən qurmaq üçün iqtisadi təşviq edə bilər;

- Mədəniyyətlərarası. Uzunmüddətli perspektivdə daha çox ticarət və mədəni əməkdaşlığa səbəb ola biləcək beynəlxalq əlaqələri təşviq edir. Eyni zamanda mədəniyyətlərarası məlumatlılığı artırır və həm yerli sakinlər, həm də turistlər üçün mədəniyyətlər arasında anlaşma körpüləri yaradır;

- Təqdimat. Turizm bölgəyə özünü göstərmək və dünyadakı adını yüksəltmək şansı verir.

Ölkədə yeni iş imkanlarının yaradılması ilə turizm bölgələr arasındakı gəlir bölgüsünə müsbət təsir edərək bölgələrdə tarazlı inkişafa imkan yaradır. Turizm əlavə dəyər hesabına regional iqtisadiyyata töhfə verir. Turizm gəlirlərinin təsirinin artması keyfiyyətli kənd təsərrüfatı sektorunun istehsalında, standartlaşmada və keyfiyyətli məhsulların real dəyərində artıma səbəb olur. Turizm sektoruna paralel olaraq, turizmin inkişaf etdiyi ərazilərdə ətraf mühitin şüurlandırılması, yuxarıda göstərilən inkişaf

amillərinin reallaşma sürəti, ölkənin və ya bölgənin turizm təchizatı məlumatlarından səmərəli istifadə edilməsi və turizm sektorunun ölkənin inkişafında prioritet bir sahəyə çevrilməsi ilə də turizm mümkündür (http://www.market-width.com/Tourism-Industry.htm, 2021).

Regional inkişaf - bir bölgənin və ya regionun rifahında bir artım olaraq başa düşülür. Hər ölkənin tərkibindəki bölgələr iqtisadi və sosial inkişaf səviyyələri baxımından çox fərqlənir. Bu fərqin intensivliyi zəif inkişaf etmiş ölkələrdə, inkişaf etmiş ölkələrə nisbətdə daha çoxdur. Regionlararası balanssızlığı aradan qaldırmaq və inkişaf hərəkətini reallaşdırmaq bir çox sektordan asılıdır. Bu sektorlar içində turizm sektoru da çox önəmli bir yerə sahibdir. Onsuzda digər sektorların çox təsiri olsa idi,region geridə qalmazdı. Ona görə də turizm sektorunu digər sektorlardan ayrı tutmalıyıq.

Turizm inkişaf üçün lazım olan xarici valyuta girişini təmin edir. Turizmdən gələn gəlirin xarici ölkələrdən gələn iqtisadi yardımlara görə daha çox üstünlükləri vardır. Çünki siyasi və iqtisadi məhdudiyyətlərdən azaddır. Digər tərəfdən turizmin kənd təsərrüfatı məhsulundan və xammal ixracından daha çox üstünlüyə sahibdir. Turizm sektoru, regional inkişaf və təbii resurslardan istifadədə böyük bir yerə və əhəmiyyətə malikdir. Xüsusilə, regionlararası bərabərsizliyin aradan qaldırılmasında turizm sektoru, kənd təsərrüfatı və sənayedə yetərli resurs və inkişaf imkanları olmayan, lakin zəngin turistik resurslara sahib regionların,planlı və təsirli turizm siyasətinin tətbiqi nəticəsində turizm baxımından tarazlı bir şəkildə inkişaf etmələrini təmin edəcəkdir (https://opentextbc.ca/introtourism2e/chapter/1-x-impacts-of-tourism/, 2021).

Hər hansı bir regionun turizm baxımından inkişafına çatmaq üçün aşağıdakı amilləri nəzərə almaq tələb olunur:

- Regionun mədəni dəyərləri təhlil edilməlidir;
- Regionun infrasturukturu analiz olunmalıdır;
- Regiondakı mövcud obyektlər (hotel,hostel,pansionat) araşdırılmalı,yenilərinin əlavə olunması zəruriliyi ölçülməlidir;

- Bölgədəki turizmlə birbaşa və dolayı yolla mal və xidmətləri istehsal edən müəssisələr öyrənilməlidir;
- Regiona qoyulan investisiyaların miqdarı araşdırılmalıdır;
- Regiona beynəlxalq turizm tələbinin miqdarı ölçülməlidir;
- Regiondakl yerli əhalinin turizmə reaksiyası öyrənilməlidir;
- Bölgədəki iş obyektlərində yerli əhaliyə verilən iş imkanlarına baxılmalıdır;
- Turizm sektorunun regiondakı digər sektorlarla əlaqəsini nəzərdən keçirmək lazımdır;
- Regiondakı qeyri-hökumət təşkilatlarının varlığına baxılmalıdır.

Bütün bunlar araşdırılıb, öyrənildikdən sonra regionda turizm inkişaf etdirilməsinə başlamaq olar deməkdir. Əgər həmin sahədə müvəffəqiyyətli olmaq istənilirsə, hər bir detay ən xırdalığına qədər işlənməlidir. Bundan sonra isə turizmin regiona nə kimi müsbət effektləri olacağına baxaq. Turizm sayəsində ixracatı mümkün olmayan coğrafi-iqtisadi varlıqlar, sosial-mədəni varlıqlar, dəyərlər və hadisələr həmin region üçün valyuta mənbəyinə çevrilir. Bölgəyə gələn yerli və xarici turistlərin xərcləmələri ilə artan turizm tələbi, həmin regionun həm turizm sektoruna, həm də turizmlə əlaqəli digər sektorlara investisiya qoyuluşunu artırır. Turizm sektoru xidmət sektorunda olmasına baxmayaraq, xüsusiyyətlərinə görə 33 sektora yaxındır və əlaqədədir. Başqa sözlə, bir ölkədə və ya bölgədə turizmin inkişaf eyni zamanda 33 sektorun inkişafı deməkdir. Turizm sektorunun inkişafı nəticəsində həmin regionda yaşayan əhali, evlərini pansionat olaraq turistlərə kirayə vermək yolu ilə müəyyən bir gəlir qazanmaqdadırlar. Turizmin inkişaf etdiyi bölgələrdə, eyni zamanda ekoloji şüurun inkişafı da baş tutur. Təmiz ətraf mühit turizmin əsas kapitalıdır. Turizm ətraf mühiti qoruyacaq,hava və suyun çirklənməsinin qarşısını alacaq və ekoloji model inkişaf edəcəkdir (Awedyk M., 2016).

Turizm resurslarının mövcud olduğu sahələrdə sakinlərin sosial-mədəni dəyərləri köhnəlməyəcək, hətta dəyər qazanacaqdır. Çünki bölgənin adət-ənənələri region üçün bir növ cazibə qüvvəsidir. Bu cazibənin zənginliyi də regionun inkişaf müddətini

sürətləndirəcəkdir. Turizm sektorunun inkişafından asılı olaraq fiziki infrastruktur problemi də aradan qaldırılır. Çünki inkişaf yaxşı hazırlanmış bir infrastrukturdan asılıdır.Regionda yol, su, işıq, kanalizasiya, park yeri və rabitə kimi fiziki infrastruktur inkişaf edəcəkdir. Beləliklə bölgə turizm təchizatı potensialına görə digər sənaye zonaları ilə balanssızlığı minimuma endirmiş olacaqdır.

Bölgələrdə turizmi dirçəltmək üçün həmin bölgənin reklamını düzgün aparmaq lazımdır. Regionlarda turizmin inkişaf vasitələrinə aşağıdakıları misal gətirmək olar:

1. Sərgi və yarmarkalar. Həm özəl, həm də dövlət sektoru tərəfindən həyata keçirilən sərgilər, yarmarkalar, konfranslar baş tutduqları regionlarda iqtisadi canlanma yaratmaqla bərabər, bölgələrə dinamik görüntü də gətirirlər.

2. Rekreasiya parkları. Günümüzdə insanların boş zamanlarını keçirdiyi bu istirahət parkları eyni zamanda regionun cəlbediciliyini artırmaqda da istifadə olunur.

3. Alternativ turizm. Həmin bölgələrdə turistlərin rekreasiya turizmindən başqa da vaxtlarını keçirə biləcəyi turizm sahələrinin yaradılması.

4. Mədəniyyət mərkəzləri - Regionun sahib olduğu mədəniyyət nümunələrinin dəyərləndirilməsi üçün edilən tədbirlərdir.

Regional inkişaf sıralamasında istənilən reytinqdə olmayan bölgələrdə turizmi təbliğ edərək, dəstəkləyərək, lazımi sayda və keyfiyyətdə infrastruktur təsis edərək və bölgənin turizm potensialından düzgün və davamlı şəkildə istifadə edərək daha çox turist çəkmək mümkündür. Bir ölkənin kənd və ya az inkişaf etmiş bir bölgəsində turizmin inkişafı demək, bu ölkənin inkişaf etmiş və az inkişaf etmiş bölgələri arasındakı iqtisadi fərqin azaldılması deməkdir.Ölkənin az inkişaf etmiş regionunda turizmin inkişafı ilə bu bölgənin iqtisadiyyatı üçün yeni mənbələr,yeni iş sahələri və məşğulluq sahələri ortaya çıxacaq və regionun təmin etdiyi gəlir paralel olaraq artacaqdır (Awedyk M., 2016). Beləliklə,ölkədə turizmin inkişafı və böyüməsi, bölgələr arasında inkişaf fərqlərinin aradan qaldırılmasına kömək edəcəkdir.

## 1.2. Turizm sahəsində kurort-sağlamlıq turizminin inkişaf zəruriliyi

Turizm sektoru özlüyündə olduqca geniş və çoxşaxəli bir sahədir. Turistlər müxtəlif səbəblərdən öz ölkələrini tərk edərək,başqa ölkələrə səyahət edirlər. Buna görə də turizmin aşağıdakı növləri fərqləndirilir:

- Dərketmə turizmi. Bu turizm növünə ekskursiyalar aiddir. Hər hansi bir regionun tarixi abidələri,təbiəti,landşaftı ilə tanış olmaq məqsədilə təşkil olunur;
- Rekreasiya turizmi. Bu turizm sahəsində əsasən gedilən ölkələrin sayı az, qalma müddəti isə nisbətən çox olur;
- Elmi turizm. Hər hansı bir elmi konfranslara,tədbirlərə qatılmaq üçün turistlərin bir yerdən başqa yerə səyahət etməsidir;
- İşgüzar turizm. Bu turizm növünün həayata keçirilməsi üçün fəslin,havanın heç bir önəmi yoxdur. Əsasən,iqtisadi,ticari əməkdaşlıqlar üçün təşkil olunan turizm növüdür;
- Nostalji turizm. Bir çox hallarda qohumlarla görüşmək,doğma yurda baş çəkmək kimi başa düşülən turizm növüdür;
- Macəra turizmi. Bu turizm növü digərlərinə nisbətən daha yorucu və həyati təhlükəsi olan turizm növüdür;
- Kənd turizmi. Şəhər əhalisinin müvəqqəti olaraq kəndlərə üz tutmasıdır. Onlar kənd həyatı ilə tanış olur,buranın təmiz havasından,yeməklərindən həzz alaraq istirahətlərini edirlər;
- Ekoturizm. Son zamanlar çox yayılan turizm sahəsidir. Ətraf mühitə qayğı göstərmək kimi başa düşülür;
- Dini turizm. Dini ibadətlərin yerine yetirilməsi məgsədilə təşkil olunan bu turizm növü hal-hazırda İslam ölkələrində olduqca populyardır;
- İdman turizmi. Hər il keçirilən idman oyunlarında həm iştirak, həm də tamaşa etmək üçün insanların bir yerdən başqa yerə səyahət etməsidir.

Yuxarıda qeyd etdiyimiz növlərdən başqa da turizmin şəhərətrafı,alış-veriş,safari,ritual,etnik kimi bir çox sahəsi vardır.

Müasir dövrdə turizmin ən sürətlə inkişaf edən, dinamik sahəsi sağlamlıq turizmidir. XXI əsrdə texnologiyanın inkişafı ilə bir çox işimiz asanlaşsa da, sürətlə inkişaf edən texnologiya,təbiətin tarazlığının pozulması paralel olaraq sağlamlıq problemlərinin də ortaya çıxmasına səbəb olmuşdur. Belə olduqda insanlar dərmanı təbii kurort-sağlamlıq zonalarında axtarmağa başladılar. Bu sahəyə olan tələb artdıqca da kurort-sağlamlıq regionlarına qoyulan investisiyalar da artır və yeni mərkəzlər açılaraq insanların istifadəsinə verilir.

Kurort-sağlamlıq turizmi müalicə, reabilitasiya xidmətlərinə ehtiyac nəticəsində ortaya çıxan beynəlxalq tələb potensialından istifadə edərək səhiyyə müəssisələrinin böyüməsini təmin edən bir növdür. Sağlamlıq turizmi insanların yaşadıqları yerlərin xaricində müalicə almaqlarını hədəfləyərək bir yerdən başqa yerə səyahət etmək mənasına gəlir. Sağlamlıq turizminin meydana gəlməsinin ən vacib səbəbi isə insanların öz yaşadıqları yerdə müalicə alıb sağalmamaları və ya gec sağalmalarıdır. Sağlamlıq turizminin əsas məqsədi- bu turizm sahəsinə ehtiyacı olanların və onların yaxınlarının tam rahatlığının təmin olunmasıdır. Kurort-sağlamlıq turizmi elə bir sahədir ki, onun hansısa bir mövsümü yoxdur,ilin istənilən dövründə bu turizm növünü həyata keçirmək mümkündür. Bu da həmin sahənin daha da çox inkişafına təsir edən səbəblərdən biridir. Kurort-sağlamlıq turizmi düzgün plan əsasında həyata keçirilsə ölkənin iqtisadiyyatı üçün çox böyük qazanc mənbəyi olacaqdır (https://www.health-tourism.com/medical-tourism/history/, 2021).

Kurort-sağlamlıq turizminin inkişafı çox qədimdən başlamışdır. Tunc dövründə (təxminən e.ə. 2000), St. Moritz kimi tanınan təpə qəbilələri dəmirlə zəngin mineral bulaqlarda çimmək və içməyin sağlamlığa faydalarını dərk etdilər. Su içməkdə istifadə olunan tunc qabların eynilərinin Fransada və Almaniyada tapılması bu mədəniyyətlər arasında bir sağlamlıq səyahətinin olduğunu göstərir. Qədim yunanlar sağlamlıq turizmi şəbəkəsinin əsasını hərtərəfli qoyan ilk mədəniyyət idi. “Asklepios Məbədləri” dünyanın ilk sağlamlıq mərkəzidir. Olimposdakı “Zeus Barınağı” və “Delfi Tapınağı” bu dövrdə bu tip sığınaqlardan idi. Hindistanda yoga və ayurveda təbabətinin yayılması

ilə sağlamlıq turizmi inkişaf etmişdir. Hindistanda tətbiq olunan ən geniş müalicə tətbiqetmələrindən biri olan Ayurveda, ən qədim (e.ə. X əsr) tibb sistemlərindən biridir. Romalıların bəzi xəstəlikləri şəfalı sularla müalicə etdikləri, bu sularla müharibədə yorğun olan əsgərlərin enerjili olduqlarını təyin etdikləri və getdikləri hər yerdə şəfalı suların ətrafında əhəmiyyətli təsis qurduqları bilinir.

Sağlamlıq turizminin əsas 2 növü fərləndirilir: Beynəlxalq və Daxili (Smriti C., 2020).

1. Beynəlxalq sağlamlıq turizmi. Bir ölkədə yaşayan insanlar tibbi, stomatoloji və cərrahi yardım almaq üçün başqa bir ölkəyə gedərsə, eyni zamanda öz ölkələrinə bərabər və ya daha çox qayğı alsalar və əlverişliliyi səbəbiylə tibbi yardım üçün səyahət edərlərsə, daha yaxşı qayğıya və ya daha yüksək keyfiyyətli xidmətə giriş beynəlxalq sağlamlıq turizmi adlanır. Beynəlxalq sağlamlıq turizmi də özündə iki cür olur : gəlmə və getmə. Gələn Sağlamlıq Turizmi, müəyyən bir ölkəyə daxil olan xarici mənşəli turistlərə aiddir. İnsanlar evləri, vətənləri xaricində bir ölkəyə tibbi məqsədlər üçün səyahət etdikdə, bu ölkəyə gələn sağlamlıq turizmi deyilir. Gedən Tibbi Turizm, mənşə ölkələrindən başqa bir ölkəyə səyahət edən turistlərə aiddir.

2. Daxili tibbi turizm, bir ölkədə yaşayan insanların tibbi, diş və cərrahi yardım almaq üçün başqa bir şəhərə, bölgəyə və ya əyalətə getməsi, eyni zamanda öz şəhərlərinə bərabər və ya daha çox qulluq alması və əlverişli olması, daha yüksək keyfiyyətli xidmət göstərməsidir.

Son zamanlarda inkişaf etmiş ölkələrin əhalisi inkişaf etməkdə olan ölkələrə bu turizm növüylə bağlı səyahət edirlər. Kurort-sağlamlıq turizminin inkişafında mühüm amillərə; xidmətlər və xidmətlərə çatmağın çətinliyi,uzun müddət gözləmə problemləri və xərclər,kosmetik cərrahiyə və bu kimi müdaxilələri dövlətin sığorta xidmətinin qarşılamaması,ölkələrdə mövcud olmayan xidmətlər,bəzi etik səbəblər,ölkədən kənarda,bilinməyən bir yerdə müalicə almaq istəyi,ekzotik bölgələrdə sağlamlıq xidmətləri seçimi və maddi imkan da uyğundursa həmin yerdə müalicə ilə paralel əyləncə istəyi aid ola bilər.

Kurort-sağlamlıq turizminin inkişafında digər amillərə dünyadakı qloballaşma prosesi, informasiya və kommunikasiya texnologiyalarındakı sürətli inkişaflar, ölkənin səhiyyə sistemlərindəki problemlər, istehlakçıların məlumatlılığı, istehlakçı üstünlükləri, sektorların yeni bazar axtarışı da göstərilə bilər. Sağlamlıq turizminin inkişafına təsir edən bir başqa səbəb isə sığorta sektorudur. Bəzi böyük sığorta şirkətləri öz sığorta xidmətlərini təkcə ölkə daxilinə yox,beynəlxalq səviyyədə genişləndirirlər. Bu da ölkələr arası ticarət əlaqələrinin genişlənməsinə və turizm ölkəsinin gəlirinin artmasına səbəb olur.

Ölkədə kurort-sağlamlıq turizminin inkişaf etdirilməsi tək xarici turistlər üçün yox, həm də yerli turistlər üçün də vacibdir. Bununla belə,müalicəyə ehtiyacı olan yerli əhali daha yüksək xərclər edərək başqa ölkəyə getmeyəcək və bunun nəticəsində gəlir ölkəyə qalacaq. Gəlirin artması ilə də turizm bölgəsinə qoyulan investisiyanın miqdarı da artacaq və işsizlik səviyyəsi də azalacaqdır.

Sağlamlıq turizmi özlüyündə bir neçə növə bölünür. Onun növləri aşağıdakı kimidir (https://www.madrehealthcare.com/top-10-types-of-medical-tourism/, 2020):

- Tibbi turizm. Tibbi turizm turistin sağlamlığının yaxşılaşdırılması üçün görülən tədbirlərdir. Bura əsas müalicə (ürək-damar cərrahiyyəsi, radioterapiya), ürək, böyrək, qara ciyər nəqli əməliyyatları, plastik cərrahiyyə, diş müalicələri, piylənmə əməliyyatları, göz müalicələri və.s aiddir;
- Yaşlı turizmi. Baxıma möhtac yaşlıların öz ehtiyaclarını qarşılamaları üçün ölkədaxili və ya ölkəxarici səyahətlər başa düşülür. Son zamanlar kurort-sağlamlıq turizminin ən öndə gedən sahəsi də elə məhz budur;
- Əlil turizmi. Təəssüf ki, dünyada inkişaf edən sağlamlıq turizmi xidmətlərindən əlil insanlar bizim kimi istifadə etmək də çətinlik çəkirlər. Ona görə də onlar üçün uyğun və rahat əldə edə biləcəkləri mərkəzlərin qurulması vacibdir;
- Termal turizm. Termal turizmin tərifi termal sulardan şəfa kimi təyin olunur. Başqa bir tərifdə termal turizm, xəstənin şəfa tapmaq və ya sağlamlığını qorumaq üçün termal mənbələrə gəldiyi zaman ortaya çıxan bir turizm növüdür;

Kurort-sağlamlıq turizminin ölkə üçün yaratdığı faydalar çoxdur. Onları aşağıdakı kimi sıralamaq olar (Lancaster K., 2020):

- Xarici turistlərdən gələn gəlirin ölkə iqtisadiyyatına təsiri. Turistlərin ölkəyə gəlməsi demək gəlirin artması deməkdir;
- İnkişaf etməkdə olan ölkələrdə sağlamlıq turizmi inkişaf etmiş ölkələrdən valyuta axınını təmin edir;
- Ölkələr arasında məlumat mübadiləsi gedir;
- Ölkələrarası strateji əməkdaşlıqlar yaranır və güclənir;
- Beynəlxaql səviyyədə texnologiya və məlumat ötürülməsi təmin olunur;
- Xarici turistlərə göstərilən xidmət, həm də yerli xəstələrə də daha yaxşı xidmət göstərilməsini təmin edir;
- Qlobal marketinq və tibbi ticarət inkişaf edir.

Ölkədə kurort-sağlamlıq turizminin inkişafı həmin ölkənin sağlamlıq ölkəsi kimi beynəlxalq səviyyədə tanınmasına gətirib çıxarır,beynəlxalq münasibətlərin genişlənməsinə kömək edir. Həmçinin rəqabətqabiliyyətliliyi artırır və dövlət və ya özəl sektorla əməkdaşlığı təmin edir. Ard-arda gələn xəstələrin ölkədən və regiondan razı getmələri bu turizm sahəsinə olan tələbi də artırır.

Sağlamlıq turizminin inkişafını təmin etmək və meydana çıxan maneələri həll etmək üçün təkliflər aşağıda verilmişdir:

- Dövlət sağlamlıq turizmi haqqında qanunvericiliyi beynəlxalq standartlara uyğun olaraq tətbiq etməlidir;
- Sağlamlıq turizmi investorları ilə lisenziyalaşdırma prosedurları daha sürətlə həyata keçməlidir;
- İnvestorlara bu sahə ilə bağlı güzəştlər edilməli,vergilər azaldılmalıdır ki, onlar bu məsələdə həvəsli olsunlar;
- Sağlamlıq turizmi üçün zəruri olan səhiyyə xidməti təminatçıları, nəqliyyat xidmətləri və yaşayış xidmətləri kimi fərqli sektorların birlikdə işləməsi və ortaq hərəkət etməsi təmin edilməlidir;

- Səhiyyə xidməti təminatçıları dövlət qurumları ilə əməkdaşlıq etməli və bu mövzuda öz planlarını onlarla paylaşmalıdırlar;
- Səhiyyə xidməti təminatçıları rahat ünsiyyət qurulması üçün xarici dil bilikləri olan əməkdaşları işə götürməlidir;
- Beynəlxalq səviyyəli səhiyyə işçilərinin sayı artırılmalıdır;
- Beynəlxalq səviyyədə etibarlı tibbi sığortanın istifadəsi təşviq edilməli və bu sığortaların ölkə daxilində etibarlılığı təmin edilməlidir;
- Ölkələr arasında sağlamlıq turizmi sahəsində ikitərəfli razılaşmalar edilməlidir;
- Səhiyyə xidməti təminatçıları, ölkələr arasında gigiyena, yemək vərdişləri və həyat tərzi kimi mədəni fərqliliklərdən qaynaqlanan narahatlıq və qorxuları həll etmək üçün lazımi institusional təşkilatlar yaratmalıdırlar;
- Səhiyyə müəssisələrində keyfiyyətli xidmət göstərilməsi üçün tibbi səhv (səhv tətbiqetmə) qanunlarının tətbiqi təmin edilməlidir.

## 1.3. Turizm sahəsində kurort-sağlamlıq turizminin inkişafı ilə bağlı beynəlxalq təcrübənin öyrənilməsi

Ölkədə turizm sahəsini inkişaf etdirməyin ən effektli yolu bu sahədə ixtisaslaşan və inkişaf etmiş ölkələrin təcrübəsini öyrənməkdir. Beynəlxalq təcrübəni öyrəndikdən sonra buna əsasən strateji plan qurmaq və onu tətbiq etmək lazımdır. Sağlamlıq turizmi dünya ölkələri üçün yeni bir anlayış deyildir. Bu turizm növünün yüzlərlə il əvvədən var olduğu bilinir. Sağlamlıq turizmi 14-cü 17-ci əsrlər arasında Avropada,İngiltərədə əhəmiyyətli irəliləyişlər əldə etmişdir. 16-cı əsrə qədər Xristian dünyasında din və siyasətin istismar vasitəsi olan isti bulaqlar bu dövrdən sonra, 18 və 19-cu əsrlərdə, İtaliyada və Fransada istifadə edilmişdir. Bu gün isə sağlamlıq turizmi daha da populyarlaşmışdır.

İnkişaf etmiş ölkələrdə yüksək səviyyəli təhsil və rifah nəticəsində, səhiyyə işçilərinin yüksək əmək haqqı kimi bir çox parametr səbəbindən səhiyyə xidmətlərinin

göstərilməsi yüksəkdir. Xüsusilə qocalan əhalinin sağlamlıq ehtiyacları və sağlamlıq xərclərinin payı inkişaf etmiş ölkələrdə gündən-günə artmaqdadır. Bundan əlavə, artan sosial təminat xərcləri sosial təminat təşkilatlarını məcbur edir. Bu problemləri aradan qaldırmaq üçün sosial təminat qurumları və özəl sığorta qurumları, keyfiyyətli tibbi xidmətlər göstərən ölkələrdə sağlamlıq turizmi şirkətləri ilə paket müqavilələr bağlayır və sağlamlıq xidmətlərinin ucuz qiymətə alınması üçün səylər göstərilir.

Dünya səvyyəsində baxdığımızda sağlamlıq turizmində lider ölkələrə Hindistan, Tayland, Sinqapur, ABŞ, Malayziya, Meksika, Cənubi Afrika Respublikası və Almaniyanı aid etmək olar. Məsələyə alt başlıqlar şəklində baxsaq isə, tibbi turizmdə Panama, Braziliya, Kosta- Rika, Malayziya, Hindistan öndə gedən ölkələrdir. Termal turizm sahəsində Türkiyə, Hindistan, Malayziya liderlik edir. Spa turizmi sahəsində isə Macarıstan, Çexiya, Avstriya, Bali, Maldiv adaları əsas ölkələr hesab olunur. Qonşu Türkiyədə sağlamlıq turizminin inkişafını araşdırdığımızda türklərin yüz illər əvvəl "yuma" və "təmizlik" mədəniyyətini Anadoluya gətirdiklərini görərik. Bunun nəticəsində illər sonra hamamların ortaya çıxdığını görürük. Türklər, mədəniyyətlərinin memarlığı xarakterlərini əks etdirən Türk hamamlarını tikdilər. Bu inkişafı həyata keçirilməklə, terapevtik məqsədlər üçün "hovuz" yerləri və spa hovuzu texnikası Avropaya yayıldı. Bu gün Avropada olduğu kimi Amerikadakı Türk Hamamları bu mədəniyyətin əsəridir (https://healthcare-digital.com/hospitals/top-5-countries-medical-tourism, 17.05.2020).

Kurort-sağlamlıq turizmində ixtisaslaşmış ölkələrin strategiyalarına göz gəzdirək. Cənub-şərqi Asiya ölkələri olan Sinqapur, Tayland, Malayziya bildiyimiz kimi bu sahədə olduqca böyük uğurlar əldə etmiş ölkələrdir. Bu ölkələrdə qəbul edilən siyasət və strategiyalar ümumiyyətlə tibbi turistlər üçün vizaların yaradılmasını, idxal olunan tibbi avadanlıq və ləvazimatlara verginin azaldılmasını və ya ləğv edilməsini, beynəlxalq xəstəxanalar üçün təşviqləri və ya tələbləri əhatə edir. Malayziyada sağlamlıq vizası ilə qalma müddəti 30 gündən altı aya qədər uzadılmışdı. Malayziya

hökumətinin beynəlxalq sağlamlıq turistlərinə inam yaratmaq üçün akkreditasiya sistemi inkişaf etdirmişdir.

Karib dənizi sahili ölkələr də sağlamlıq turizmindən gəlir əldə edən ölkələrdəndir. Kuba bu sahədə çox əvvəldən turistlər qəbul edib müalicə etsə də, əsas yüksəliş SSRI-nin dağılması ilə başladı. Bu ölkələr və səhiyyə sektorları birlikdə özəl səhiyyə sektoru investisiyaları üçün asanlaşdırıcı çərçivələr inkişaf etdirir, tibbi turizmi dəstəkləyən siyasətlərin inkişafına rəhbərlik etmək üçün milli komitələr qurur, tibbi turizmi təbliğ edən beynəlxalq ticarət konfranslarında iştirak edir və əsas məqsədi tibb turistlərini müalicə etmək olan yeni obyektlər inkişaf etdirir (Connell J., 2013).

Yamayka da tibbi turizmdə dünya üzrə çox tələb görən ölkələrdəndir. Ölkənin iqtisadi çətinliklərinə baxmayaraq, Yamayka, mənbələri çox az olsa da, nisbətən möhkəm bir səhiyyə sisteminə malikdir. Yamaykanın həm həkimlər, həm də tibb bacıları üçün təhsil proqramları beynəlxalq səviyyədə tanınmışdır, ölkədə aşağı yoluxucu xəstəliklər və uşaq ölümü nisbətlərini təmin edən güclü bir ilkin səhiyyə xidməti mövcuddur.

Hindistanın gigiyena mövzusunda mənfi imicinə baxmayaraq, hökumət dəstəyi ilə sağlamlıq turizmi sahəsində inkişaflar yaşanır. Hindistan hökuməti 2006-cı ildə sağlamlıq turizmini artırmaq məqsədiylə sağlamlıq turistləri və onların işçiləri üçün əldə edilməsi asan olan xüsusi bir viza növü çıxardı. Bunun nəticəsində ölkəyə gediş-gəliş asanlaşdı.

Braziliya hökuməti vətəndaşlarının keçirəcəyi estetik əməliyyatlara dəstək verir və xərclərin əhəmiyyətli bir hissəsini öz üzərinə götürür. Braziliya yaxşı təlim keçmiş plastik cərrahlarla bir sistem yaratdı və dünya miqyasında estetik əməliyyatlar üzrə mərkəzə çevrilməyi bacardı (https://medtourpress.ir/en/why-medical-tourism-in-brazil/, 2021).

Dünyadakı sağlamlıq turizmi marketinq nümunələrində görə bildiyimiz kimi marketinq səhiyyəsində müvəffəqiyyət üçün tək bir düstur yoxdur. Fərqli ehtiyacları olan fərqli ölkələrdən gələn turistlər üçün fərqli təkliflər və fərqli ünsiyyət strategiyaları daha çox dəyər qatacaqdır. Məsələn, Avropa mənşəli sağlamlıq turistləri daha çox

Hindistan və Taylanda üstünlük verirlər. Asiya bölgəsində yaşayan turistlər, daha çox Malayziya və Sinqapura üstünlük verirlər. Ümumi marketinq strategiyalarında olduğu kimi bu sahədəki seqmentasiya, hədəf bölmə seçimi və düzgün yerləşdirmə strategiyalarının tətbiqi müvəffəqiyyət qazanmağa səbəb olacaqdır.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Kurort-sağlamlıq turizminin ümumi turizmin inkişafında rolu və əsas prinsipləri

Hər il milyonlarla insan müalicə almaq, tibbi xidmətlərdən istifadə etək, cərrahi prosedurlara daxil olmaq, terapevtik xidmətlərdən yararlanmaq məqsədilə başqa ölkələrə səyahət edir. Bu məqsədlər daxilində turistik fəaliyyətlər sağlamlıq turizmini formalaşdırır. Hazırda sağlamlıq turizmi dedikdə həm sağlamlaşdırma, həm də tibbi-müalicə turizmi nəzərdə tutulur. Sağlamlıq turizmi inkişafının müasir mərhələsində müalicə - profilaktika ilə yanaşı, reklam, sənaye, səyahət kimi sahələri də ehtiva etməkdədir. Belə ki, biznes səyahətləri və ya digər məqsədlərlə ölkəyə gələn turistlərin sağlamlıq turizmindən yararlanmağa da meyilli olduqları bilinir.

Müasir ədəbiyyatlarda tibbi-müalicə və sağlamlaşdırma turizmi belə fərqləndirilir. Sağlamlaşdırma turizmi üzrə ölkəyə səfər edən turistlər faktiki "xəstə" hesab edilən qrupa daxil deyillər. Onların səyahətində məqsəd ümumi yoxlanış, terapiya, mental tibbi xidmət almaq, proaktiv yanaşma əsasında öz sağlamlıqlarını daha da yaxşılaşdırmaqdır. Tibbi-müalicə turizminin konkret hədəf kütləsi isə ölkəyə kosmetik və ya cərrahi əməliyyatlar, bəlli bir xəstəliyin müalicəsi üçün gələn insan qruplarıdır. Birinci qrupa daxil olan turistlər, adətən, mehmanxanalarda və ya otellərdə qalırlar, birbaşa tibbi müəssisələrdən istifadə etmirlər. Bunun əvəzinə sağlam qidalanma, fitnes, meditasiya, gözəllik və mental fəaliyyətlərlə bağlı xidmətlərdən istifadəyə meyilli olurlar.

Digər turizm sahələri ilə müqayisədə sağlamlıq turizmində yeni məhsul yaradılması baş vermir, əksin var olan məhsulun turistlərə təqdim edilməsi ilə ölkəyə valyuta axını təmin edilir. Xəstələrin tədricən "müştəri" kimi qiymətləndirilməsi sağlamlıq turizminin formalaşmasına təkan vermişdir. Başqa ölkələrə səfər edən

insanlar turizm müəssisələri ilə müalicə xidmətləri almaqla bağlı iş birliyi qururlar. Ölkə iqtisadiyyatına valyuta daxilolmalarını təmin etməsinə baxmayaraq, bu sektoru ixrac kimi qiymətləndirmək yalnış olar. Çünki kurort-sağlamlıq turizmində ixrac prosedurlarının əksinə, alıcı insan qrupları ölkəyə daxil olmaqla yerində xidmətdən yararlanırlar. Tibb elminin gündən-günə inkişaf etdiyi müasir zamanda ölkənin dünya və ya regional səviyyədə sağlamlıq turizmi üzrə turistlərin cəlb ediciliyini qazanması güclü səhiyyə infrastrukturunun və yüksək keyfiyyətli tibbi xidmətlərin olmasını tələb edir. İqtisadi baxımdan qiymətləndirildikdə gəlirli sektorlardan biri sayılan və daima ehtiyac duyulan sahələrdən biri olaraq kurort-sağlamlıq turizminin inkişaf etdirilməsi prioritet məsələlərdən biridir. Lakin sağlamlıq turizmini insanların sadəcə tibbi müəssisələrdə müalicə almaq üçün səyahəti kimi izah etmək doğru olmazdı. Təbii ki, hər kəs müalicə almaq üçün tibbi xidmətlərlə bağlı ən yaxşı seçimi etməyə çalışır. Bu sektoru turizmə bağlayan əsas cəhət isə ölkəyə gələn insanların müalicə-proflaktika ilə yanaşı, digər bir sıra xidmət növlərindən də istifadə etməsidir.

90-cı illərdən başlayaraq, qloballaşma hesabına ölkələrarası səyahət imkanlarının genişlənməsi, sürətli və daha təhlükəsiz nəqliyyatın təmin olunması kimi faktorlar insanların müalicə məqsədilə daha uyğun qiymətə, daha professional və ixtisaslı tibbi işçi qrupları olan, habelə təbii-müalicəvi resurslara sahib ölkələrə üz tutması sürətləndi. Turizmin bu sektorunun başlıca hədəf kütləsi ənənəvi üsulla müalicədən kənar, təbiət qoynunda, müxtəlif xidmət növlərindən istifadə etməklə fərqli müalicə formalarına meyil edən orta və yüksək gəlirli insanlardır (Dərgahov V.S., 2008).

Hazırda dünya səviyyəsində ən geniş yayılan sağlamlıq truzim forması fərdi turizmdir. Müalicə-profilaktika məqsədilə səfər edən insanlar sanatoriyalar, müxtəlif sağlamlıq mərkəzləri və kurortların mövcud olduğu ərazilərə üz tuturlar. Adətən, kurort-sağlamlıq turizmi 14-21 gün davam edir. Beynəlxalq təcrübədə kurortların aşağıdakı növləri fərqləndirilir:

- İqlim kurortları – dəniz sahilində və ya təbiət qoynunda müalicə-sağlamlaşdırma xidmətləri göstərilir.

- Balneoloji kurortlar – mineral sular hesabına müalicəni nəzərdə tutur;
- Palçıq kurortlar – müalicəvi palçığın istifadəsinə əsaslanır;
- Keçid kurortlar – kompleks, qarışıq müalicə üsullarının tətbiq edildiyi sağlamlıq mərkəzləridir.

Sağlamlıq turizmi insanlara tibbi xidmətlərin göstərilməsini də özündə ehtiva edən turizm növüdür. İnsanların yaşadıqları ölkədən kənarda tibbi xidmətlərdən istifadəsini stimullaşdıran başlıca faktor yerli səhiyyə strukturunun zəif inkişafı, əhalidə tibbi sektora yetərincə inam və etibarın olmaması, peşəkar-ixtisaslı səhiyyə işçilərinin sayının az olması, göstərilən xidmət müqabilində ödəmələrin yüksək həddi və sairdir. İqtisadi ədəbiyyatlarda sağlamlaşdırma və tibbi turizm belə izah edilir: müalicə, qonaqlama, tibbi xidmət və təhlükəsizliyin təmini ilə müəyyən müddət ərzində (adətən, bu müddət 21 gün davam edir) təbii ehtiyyatlar əsasında xidmətlər təmin edən turizm müəssisələrinin fəaliyyəti hesabına turistlərin qəbuludur. Xəstələrin müalicəvi prosedurlara cəlb edildiyi sağlamlaşdırma turizminin bir sıra spesifik xüsusiyyətləri vardır:

- Medikal turizmdən yararlananlara, əsasən, yaşadığı ölkədə bir sıra tibbi prosedurların qadağan edildiyi, müəyyən müalicə prosedurlarının həddən artıq bahalı olduğu, uzun zaman tələb etdiyi və aşağı keyfiyyətli səhiyyə sisteminin mövcud olduğu insan qrupları daxildir;
- Sağlamlıq turizmi xəstə insanları hədəf alır və onların müalicəsini həyata keçirir;
- Digər turizm sahələrindən fərqli olaraq tibbi turizm ilin bütün fəsillərində fəaliyyətdə olması mümkündür;
- Sağlamlıq turizmi qlobal səviyyədə xəstələrin mövcud potensialından istifadə edərək tibbi turizm obyektlərinin inkişafına da təkan verir;
- Digər turizm sektorlarından fərqli olaraq, burada müştərinin, yəni xəstənin tələbi deyil, həkimin diaqnostika, tibbi və texnoloji vasitələrdən istifadə əsasında verdiyi qərar əsas tutulur;

- Fərdlərə görə dəyişkən və köçürülə bilməyən xidmətləri ehtiva edir;
- Bu turistik xidmətlərdən aldığınınz nəticə pula çevirilə bilməz;
- Tibbi turizm daxilində göstərilən xidmətlər fərdi görünsə də, ümumi qiymətləndirmədə sosial xidmətlər sferasına daxildir.
- Müalicə, xəstəlik yaratması ehtimal olunan səbəblərin aradan qaldırılması və reabilitasiya xidmətlərinin mövcud olması;
- Tibbi turizmdə müştəri məmnuniyyətinin ölçülməsi və xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi olduqca çətindir.

Dünya turizm bazarına nəzər saldıqda bu sektorda yaradılan dəyərin həcminin tədricən artdığı müşahidə edilir. 2020-ci ildə qlobal tibbi turizm bazarının dəyəri təqribən 44,8 milyard ABŞ dolları təşkil etmişdir. 2019-cu ildə isə bazarın təqribi dəyəri 43 milyard dollar civarında olmuşdur. Proqnozlara görə 2022-ci ilə qədər bu məbləğ 55 milyard dollara yaxın olacaqdır. Onu da qeyd edək ki, hələ 2017-ci ildə qlobal səviyyədə turistlərin sayında 14-16 milyon nəfərin səyahəti məhz tibbi xidmətlər alınması məqsədilə olmuşdur. Qarşıdakı yeddi il ərzində turizm bazarının 21%-ə qədər genişlənəcəyi gözlənilir. Covid-19 pandemiyasından öncəki dövrdə dünya turizm bazarı ilə bağlı verilən proqnozlar özünü mövcud səbəblər dairəsində doğrultmadı. Məlumdur ki, ölkələrarası sərhədlərin aylarla bağlı qalması, uçuşların təxirə salınması, sahibkarlıq müəssisələrinin fəaliyyətinin müəyyən fasilələrlə dayandırılması və sair tədbirlər iqtisadi fəaliyyət növləri arasında ən çox turizm sektorunu zəiflətmişdir. Lakin bu problemlərə rəğmən sağlamlıq və tibbi turizmin inkişafında ciddi geriləmə müşahidə edilməmişdir. 2027-ci ildə qlobal turizm bazarında yaradılan dəyərin həcminin 207,9 milyard dollara yüksələcəyi gözlənilir. Bu isə o deməkdir ki, tibbi turizmdən istifadə edən əhalinin sayında hər il 25% -ə qədər artım gözlənilir. Tibbi turizmlə bağlı statistikaları nəzərdən keçirdiyimiz zaman məlum olmuşdur ki, dünya ortlamasına görə turistlər tibbi xidmətlər müqabilində 3.000-10.000 dollar məbləğində xərcləmə həyata keçirirlər. Tədqiqatlar göstərir ki, İngiltərədə hər il 63 mindən artıq insan tibbi turizm

məqsədilə ölkəni tərk edir. Sağlamlıq turizmindən ən çox yararlanan ölkələr arasında Tailand xüsusilə qeyd edilməlidir. Burada tibbi turizm ümumi bazarın 22%-ə qədərini təşkil etməklə hər il 1,8 milyon turist qəbul edir.

Səyahət etdikləri ölkələrdə tibbi xidmətlərdən yararlansalar belə tibbi turist hesab edilməyən insanlar vardır ki, onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Səyahət etdiyi ölkədə 21 gündən uzun müddət qalan və bu müddət ərzində tibbi xidmətlərə ehtiyac duyan şəxslər. Təhsil və biznes məqsədilə digər ölkələrə səyahət edən və orada məskunlaşdığı həftələr və ya aylar ərzində müalicəyə ehtiyac duyan şəxslər səyahətlərinin başlıca məqsədinin sağlamlaşma olmadığından tibbi turist hesab edilmirlər.

2. Ümumi hesab edilən sərhədlər daxilində səyahət edərək müalicə alan turistlər. Xüsusilə Avropa ölkələrinin bəzilərində ümumi sərhədlər qəbul edilmişdir ki, həmin sərhədlər keçilmədiyi təqdirdə səyahət tibbi turizm kimi qiymətləndirilmir.

3. İstirahət və əyləncə məqsədli qısa müddətli səfərlər zamanı ölkənin tibbi xidmətlərindən yararlanan turistlər.

Turistlərin bu və ya digər tibbi turizm əraziləri ilə bağlı seçimlərini yeni yerlər və mədəniyyətlərlə tanış olmaq istəyi, daha yaxşı tibbi texnologiyalardan istifadə, keyfiyyətli və uzun müddət gözləmə tələb etməyən müalicə imkanları və sair faktorlar müəyyən edir. Sağlamlaşma və tibbi turizmdə xərcləmələrə viza xərcləri, həkim və xəstəxana xərcləri, nəqliyyat xərcləri, əməliyyat və ya müalicə üçün ayırılan xərclər, sığorta və qeydiyyat, qidalanma xərcləri, müvəqqəti yerləşmə üçün tələb olunan xərclər və sair daxildir.

Azərbaycanda da kurort-sağlamlıq turizminin inkişafı üçün əlverişli təbii şərait mövcuddur. Hələ SSRİ-nin tərkibində olduğu zamanlardan Azərbaycan müalicəvi Naftalan nefti ilə bütün dünyada tanınırdı. Ölkəmizin sağlamlıq turizmi məhz bu istiqamətdə ilkin inkişaf meyilləri göstərmişdir. Onu da deyək ki, Naftalan Xorvatiyanın eyniadlı müalicə mərkəzilə müqayisədə beynəlxalq səviyyədə daha məşhurdur. Ölkəmizin sağlamlıq turizmi üçün mövcud potensialı bununla bitmir,

Azərbaycanın müxtəlif rayonlarında çıxan mineral müalicəvi sular, Naxçıvanda duz mağaraları və sair sözügedən sahənin inkişaf etdirilməsi üçün potensial mənbələrdən sayılır.

Dünyaca məşhur təbii müalicəvi yerlərdən biri hesab edilən Kəlbəcərin "İstisu" ərazisi düşən tapdağından azad edilmişdir və artıq burada mümkün restrukturuzasiya işlərinə başlanmışdır. Uzun müddət işğal altında olması və səmərəsiz istifadə edilməsi hesabına kəskin dağıntılara mərzu qalsa da, buranın yenidənqurulması üçün böyük məbləğdə investisiya yatırımları həyata keçirilməkdədir. Nəticədə Kəlbəcərin əvvəlki turizm potensialı təmin olunacaqdır. Məlumdur ki, ölkəmizdə 2015-ci ildən başlayaraq büdcə gəlirlərində neft-qaz asılılığının aradan qaldırılması istiqamətində proqramlar hazırlanmış və yeni inkişaf strategiyası müəyyən edilmişdir. Başlıca məqsəd ölkəyə valyuta axınlarının artırılması və idxalın məhdudlaşdırılmasıdır. Bunun üçün ilk növbədə alternativ istehsal sahələri inkişaf etdirilməlidir. Uzun müddət neft-qaz sektorunun güclü inkişafı turizm, aqrar sektor kimi yüksək inkişaf potensiallı sahələrin geri qalması ilə nəticələnmişdir. Yeni inkişaf strategiyası və hazırlanan Strateji Yol Xəritələri turizm sektorunun bütün formalarının inkişafını və dirçəldilməsini nəzərdə tutur. Məqsədyönlü proqramlar sayəsində ölkəmizin kurort-sağlamlıq turizminin beynəlxalq tələblərə cavab verəcək şəkildə yenidənqurulması hər il yüzlərlə turistin ölkəyə cəlb edilmısi deməkdir. Bu isə öz növbəsində milli iqtisadiyyata valyuta axınını artıracaqdır (Dərgahov V.S., 2008).

Müstəqilliyin əldə edildiyi ilk illərdən fərqli olaraq, son zamanlarda tibbi turizmə dövlət səviyyəsində diqqət və qayğı artırılmışdır. Bu sahənin inkişafı istiqamətində proqramlar hazırlanmış və prioritetlər müəyyənləşdirilmişdir. Azərbaycanda kurort-sağlamlıq turizmi "Naftalan" müalicəvi nefti, duz mədənləri, termal və mineral sular, palçıq vulkanları, kükürdlü və metan oksigen suları, çimərliklər və sair ilə xarakterizə olunur. Ölkə ərazisində kurort-sağlamlıq turizminin inkişaf imkanlarını genişləndirmək və səmərəliliyini artırmaq məqsədilə, xüsusilə, Xəzər dənizi sahili boyu yüksək standartlara cavab verən tibbi müəssisələrin, sanatoriyaların, müalicə mərkəzlərinin,

kurortların və sair yaradılmasına əlverişli şərait yaradılmışdır. Bu tədbirlərin nəticəsi olaraq, son bir neçə ildə ölkəyə müalicə məqsədilə səfər edən turistlərin sayında artım müşahidə edilmişdir. Bu turistlərin arasında Orta Asiyadan, Rusiyadan, Körfəz ölkələrindən və Türkiyədən gələnlər üstünlük təşkil edir.

## 2.2. Azərbaycan Respublikası regionlarında kurort-sağlamlıq turizminin inkişafının araşdırılması və təhlili

2020-ci ildə "2019-2023-cü illərdə sosial-iqtisadi inkişaf proqramı"-nın yekunları ilə bağlı təşkil edilən konfransda çıxışı zamanı Prezident İ. Əliyev turizmin də ixrac sahələrindən biri olduğunu vurğulamışdı. 2019-cu ildə turizm sektorundan büdcəyə daxilolmaların 4,4 milyard manata yaxın olduğunu qeyd etməklə bu sahənin neft-qaz sənayesindən sonra ikinci ən güclü sahə adlandırmışdır. Qeyri-neft sektorunun inkişafını nəzərdə tutan dövlət proqramları çərçivəsində inkişaf etdirilməsi planlanan və investisiya ayırmalarının istiqamətləndiyi sahələr arasında turizm ilk yerlərdən birini tutur. Regionların bir-birinə nisbətdə inkişafında kəskin disbalansın müşahidə edilməsi və Bakı ətrafında ciddi aqlomerasiyalaşma prosesinin olması regionlarda istehsal sahələrinin, xüsusilə, turizm sektorunun inkişafı məsələsini aktuallaşdırır. Bu tədbir həmçinin rayonlarda əhalinin işlə təminat problemlərini də aradan qaldıracaq və məşğulluğu təmin edəcəkdir. İqtisadi rayonların mövcud potensialından zəif istifadə olunduğu məlumdur. İlk növbədə, rayonlara müvafiq inkişaf istiqamətləri müəyyən edilməli, yaradılacaq turizm sahələri üçün müvafiq infrastruktur formalaşdırılması, insanlar xidmət sektoru ilə bağlı məlumatlandırılmalı və kiçik və orta sahibkarların bu sahəyə marağı stimullaşdırılmalıdır.

Mövcud təbii coğrafi şərait, müalicə turizmi üçün müvafiq və spesifik potensialın olması, dövlət səviyyəsində bu sektora dəstəyin göstərilməsi kimi faktorlar son illərdə kurort-sağlamlıq turizminin inkişafını təmin etmişdir. Hələ ötən əsrin ortalarında "Naftalan" müalicəvi nefti ölkəmizi tibbi turizm üzrə beynəlxalq səviyyədə

tanınmasına səbəb olmuşdur. Hətta buradan alınan neft paketlənmiş formada digər ölkələrə də ixrac olunmaqdadır. Mütəxəssislər hesab edir ki, bu neft ginekoloji, əsəb, dəri və uroloji xəstəliklərin, oynaq ağrılarının, qaraciyər xəstəliklərinin müalicəsində möcüzəvi effektə sahibdir. Qeyd etmək lazımdır ki, dünyada atılmış qoltuq ağaclarından eksponat kimi istifadə edilərək muzey yaradılan yeganə ölkə Azərbaycandır. Yumşaq toxumaların və oynaqların müalicəsilə qoltuq ağaclarından qurtulan onlarla insan bu eksponatların, necə deyərlər, yaradıcılarıdırlar. Hazırda bu neftdən həm Naftalan rayonun daxilində, həm də ölkənin digər rayonlarında yerləşən kurort və sanatoriyalarda istifadə edilir. 2019-cu ildən burada "Gold Naftalan" və "Naftalan Hotel SPA" adlı iki böyük tibbi turizm müəssisənin qurulmasına başlanmışdır. "Qaşaltı", "Qarabağ" və "Çinar" kurort mərkəzlərində xidmət səviyyəsinin yüksəldilməsi, həm istirahət, həm də müalicə xarakterli şəraitin yaxşılaşdırılması bölgəyə turist axınını artırmışdır. Statistika Komitəsinin məlumatları əsasında deyə bilərik ki, Naftalan şəhərinə kurort-sağlamlıq turizmi üçün səfər edən turistlərin sayı son beş ildə on dəfəyə qədər artmışdır (Gurbanova R., 2018: s.92)

Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasından gələn turistlərin geniş axın etdiyi sağlamlıq mərkəzləri arasına mineral-termal sular da vardır. Müxtəlif xəstəliklərin müalicəsində istifadə edilən bu sular tərkibində on səkkiz mineral maddəni ehtiva edir. Bölgələrin bir çoxunda bu kimi sağlamlıq turizmi potensialı mövcud olsa da, mineral sulardan müalicə məqsədilə istifadə edilən sağlamlıq turizm müəssisələri Quba rayonunda "Qalaaltı" suyu yaxınlığında, Masallı rayonunda "İstisu"-da, Culfada "Darıdağ"-da, Qaxda "İlisu"-da qurulmuşdur.

Ölkəmizin ekoturizm və sağlamlıq turizmi üçün xarakterik cəhətlərdən biri palçıq vulkanlarının olmasıdır. Dünyanın bir neçə ölkəsində palçıq vulkanlarından müalicə məqsədilə istifadə edilməkdədir. Ancaq ölkəmizdə çıxan palçıq vulkanları neftlə qarışıq olduğundan daha keyfiyyətli hesab edilir. Tərkib baxımından, demək olar ki, Naftalan nefti ilə çox oxşardır. Bu sahə də son zamanlar xüsusi diqqət yetirilən sahələrdəndir. 2016-cı ildən palçıq vulkanlarından istifadə imkanlarının

genişləndirilməsi məqsədilə altı marşrut təyin edilərək əraziyə gediş-gəliş şəraiti yaxşılaşdırılmış, ingilis, rus və azərbaycan dilində olmaqla bələdçi kitablar, broşürlər çap edilmişdir. Hazırda müalicəvi palçıqdan dəri xəstəliklərinin, uroloji və ginekoloji xəstəliklərin, mədə-bağırsaq, onurğa sütunu, şəkərli diabet kimi xəstəliklərlə yanaşı, kosmetologiya sahəsində də istifadə edilməkdədir. Bəndovan və Salyan ərazisindən çıxan müalicəvi palçıq oynaq və sinir xəstəliklərinin müalicəsində effektiv təsirə malikdir. Palçıq vulkanlarının ən geniş yayıldığı ərazilər Çeyrançöl, Qobustan və Şirvandır (habelə Dağlıq Şirvan). Ekspertlərin fikrincə, palçıq vulkanları yod, ion şəklində elementlər, karbon və insan vücuduna faydalı yüzlərlə elementi özündə ehtiva edir (Dərgahov V.S., 2008: s. 155).

Coğrafi yerləşmə formasına görə kurort resurslarını belə qruplaşdırmaq olar:

- Kiçik Qafqaz zonası – tərkibi karbon turşuları ilə zəngin olan müalicəvi mineral sulara sahibdir. Balneoloji kurortlar üstünlük təşkil edir. Naftalan müalicəvi nefti də bu zonaya daxildir. Digər tərəfdən təmiz və səfalı havası, bitki və heyvan örtüyü ilə zəngin dağ-meşə əraziləri turistlərin diqqətini cəlb edir.
- Böyük Qafqaz kurort zonası – palçıq vulkanlarının da böyük bir hissəsi burada yerləşməklə, soyuq konsentrasiyalı kükürdlü, üzvi maddələrlə zəngin termal və mineral sularla xarakterizə olunur.
- Naxçıvan MR – mineral sular və müalicəvi duz mədənlərinə sahib olmaqla, regionun ən böyük kurortları Vayxır, Batabat, Badamlı, Darıdağ və Sirabdır.
- Lənkəran – Astara subrtorpik zonası – mineral və termal sularla zəngindir.
- Xəzərsahili kurort zonası – bu zona, öz növbəsində üç sahəyə ayrılır. Birinci kurort sahəsi Nabran kurortu da daxil olmaqla, Xudat-Yalama zolağınının meşələri, yodlu-bromlu sularını, bol günəşli və qumlu çimərliklərini ehtiva edir. Abşeron yarımadasında dəniz iqlimindən yararlanan Buzovna, Bilgəh, Suraxanı, Mərdəkan, Zuğulba kurortları fəaliyyət göstərir. Üçüncü sahə Zığ və Masazırın müalicəvi lil palçığını, Şıxın sulfidli termal sularını, Suraxanının kükürdlü sularını əhatə edir.

• Kür – Araz kurort zonası – balneoloji ehtiyyatlarla zəngindir. Burada yüksək minerallaşmış, azotlu, metanlı, yodlu-bromlu və silisiumlu termal sular da müalicə məqsədilə istifadə edilir.

Bu və ya digər formada sağlamlıq turizmi imkanlarından maksimum istifadənin qarşısını alan səbəblərdən biri marketinq problemlərinin olmasıdır. Dünya turizm bazarında ölkəmizin tibbi turizm imkanlarının zəif təbliğ edilməsi və sözügedən sahədə "made in Azerbaijan" brendinin yaradıla bilməməsidir. Mövcud potensialın düzgün qiymətləndirilməsi aparıldıqdan sonra, tibbi turizm sahəsində yüksək inkişaf tempi ilə seçilən ölkələrin təcrübələri araşdırılmalı, vəziyyətin GZİT analizi aparılmalı və müvafiq inkişaf proqramı hazırlanmalıdır. Müalicə turizmi ehtiyyatlarından ixrac məhsullarının istehsalını da həyata keçirmək mümkündür. Sahibkarlıq subyektlərinin bu sahəyə marağının artırılması, yenidənqurma üçün yerli və xarici investisiyaların cəlb edilməsilə sektorun inkişafı təmin edilə bilər. Digər bir məsələ mövcud sağlamlıq turizm müəssisələrinin xidmət şəraitlərinin qənaətbəxş olmaması və beynəlxalq standartlara cavab verməməsidir. Əksər kurort və sanatoriyalarda xidmət səviyyəsinin SSRİ-dən qalma prinsiplərə tabe tutulması vəziyyəti daha da çətinləşdirir. Bu istiqamətdə maarifləndirmə aparılması, beynəlxalq təbii müalicə üsullarının öyrənilməsi, turistlərin maraq dairələrinə müvafiq xidmət strukturunun formalaşdırılması vacibdir. Rayonlarda turizmin bütün sahələrinin, habelə müalicə turizminin səmərəli inkişafını təmin etmək üçün ixtisaslı kadr potensialı formalaşdırılmalıdır. Sahə üzrə mütəxəssislərin olması, innovativ qurğulardan, müalicə üsullarından istifadə edilməsi turist qəbulunu stimullaşdıracaq başlıca faktorlardan biridir. Müalicəvi turizm obyektlərinin və müəssisələrin gğstərdikləri xidmətlərin şaxələndirilməsi müxtəlif məqsədlərlə ölkəmizə gələn turistlərə həm müalicə almaq, həm də digər turistik xidmətlərdən istifadə etmək imkanları yaradacaqdır. Qeyd etmək lazımdır ki, bu tip müəssisələrin gecələmə üçün təklif etdikləri mehmanxanalar və hotellər dünya standartlarından aşağı olmasına rəğmən qonşu ölkələrlə müqayisədə daha yüksək qiymətlərlə təklif edilir. Otellərin ulduzlanması Nazirlər Kabineti

tərəfindən aparılsa da, otellərə verilən ulduzlar göstərilən xidmətin keyfiyyəti ilə üst-üstə düşmür. Bu fakt turistlərin fərdi kirayə evlərdə qalmasını stimullaşdırır, turizm obyektlərinin reputasiyasını aşağı salır. Bu problemin həlli turizm obyektlərinin beynəlxalq standartlara uyğun xidmət səviyyəsinə çatdırılması, ixtisaslı kadrlardan istifadənin genişləndirilməsi, müsbət nəticə əldə edilmiş xarici praktik təcrübələrinin müvafiq modellərinin ölkəmizdə tətbiq edilməsi və sair ilə həyata keçirilə bilər. Turizm sərgilərində Azərbaycanın müalicəvi turistik bölgələrinin layiqincə təbliğ edilməsi, dünya turizm bazarında rəqabətədavamlı turizm məhsullarının istehsalı qarşıda duran əsas məsələlərdən hesab edilə bilər. Sağlamlaşdırma və tibbi turizm turizm sektorunun elə sahələridir ki, ixrac potensiallı məhsul istehsalını da təşviq edir. Belə ki müalicəvi, termal suların, müalicə neftinin, yağların, palçığın tibbi standartlara uyğun qablaşdırılması, tibbi məhsul kimi beynəlxalq sertifikatların alınması yeni bir ixrac məhsulları qrupunun yaranması deməkdir. Bu istiqamət həmçinin ölkəmizin ixrac məhsullarının diversifikasiyası ilə bağlı dövlət proqramının məqsədlərinə də müvafiqdir. Müalicəvi turizmdən istifadə məqsədilə ölkəyə səfər edən turistlər orqanik məhsulların istifadəsinə və alışına meyilli olurlar. Müalicə turizminin qurulduğu regionlar, əslində orqanik kənd təsərrüfatı məhsullarının potensial satış bazarı kimi qiymətləndirilə bilər. Hazırda ölkəmizdə meşə meyvə və giləmeyvələri üzərindən orqanik məhsul istehsalı həyata keçirilsə də, ət və süd məhsullarının da bu sıraya daxil edilməsi planlaşdırılır. Digər kənd təsərrüfatı məhsulları ilə müqayisədə bazar dəyəri daha yüksək olan və sağlamlıq üçün təhlükəli hesab edilməyən bu məhsulların daxili bazarda ən böyük alıcı kütləsi məhz tibbi turizm məqsədilə ölkəyə səfər edən turistlərdir.

**Cədvəl 1: Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalardan istifadə edənlərin inkişaf dinamikası (nəfərlə)**

| Sanatoriyaların adı | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Bilgəh | 5390 | 5122 | 5046 | 5352 | 4859 |
| Abşeron | 2109 | 2046 | 1920 | 1985 | 1773 |
| Günəşli | 3745 | 3250 | 3045 | 3194 | 2781 |
| Qaranquş | 683 | 610 | 580 | 763 | 705 |
| Şıx | --- | 380 | 992 | 938 | 858 |
| Naftalan Kurort Birliyi | 257 | 264 | 258 | 297 | 270 |
| Şəki istirahət mərkəzi | 95 | 88 | 73 | 80 | 74 |
| Cəmi | 12279 | 11760 | 11914 | 12609 | 11320 |
| Əvvəlki ilə görə müqayisə | | -4,2% | +1,3% | +5,8% | -10,2% |

**Mənbə**:https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf, 2021

Verilmiş cədvəl ölkəmizin əsas müalicə-sağlamlıq müəssisələrinin qəbul etdiyi turist sayının 2015-2019-cu illər ərzində dəyişimini əks etdirir. Təhlildən aydın olur ki, Bilgəh sanatoriyasına üz tutanların sayı digər sağlamlıq turizm müəssisələrilə müqayisədə çoxluq təşkil edir. Bu sanatoriya üzrə ötən beş ildə ən çox turist qəbulu 2015-ci ildə qeydə alınmışdır. Sonraki illərdə 2018-ci il göstəriciləri istisna olmaqla bir istiqamətli azalma müşahidə olunmuşdur. 2019-cu ildə Bilgəh kurortuna səfər edənlərin ümumi saydakı payı 42% təşkil etmişdir, öncəki illə müqayisədə 10%-dən də çox azalma olmuşdur. 2020-ci ildə qlobal səviyyədə Covid-19 virusunun yayılması və pandemiya halını alması nəticəsində ölkələr arasında gediş-gəliş şərtləri sərtləşdirilmiş və sərhədlər bağlanmışdır. Bu səbəbdəndir ki, ötən ilin turizm göstəriciləri olduqca aşağıdır. Ən çox ziyarət edilən sanatoriyalardan biri də Günəşli sanatoriyasıdır. Cədvəlin təhlilinindən aydın olur ki, buranın turist qəbulu da 2018-ci il istisna olmaqla azalan dinamika ilə davam etmişdir. 2019-cu ildə Günəşli sanatoriyasına səfər edən turistlərin ümumi tibbi turistlərin sayındakı payı təqribən 24,5% təşkil etmişdir. Cədvəlin əks etdirdiyi digər sağlamlıq mərkəzlərinin göstəricilərində də azalma

dinamikası mövcuddur. Bu təhlil bizə onu deməyə imkan verir ki, ölkəmizdə kurort-sağlamlıq turizminin mövcud vəziyyətinin yenidən qiymətləndirilməsinə, bu sahədə dövlət proqramları əsasında işlərin görülməsinə, kiçik və orta biznesin tibbi turizm üzrə fəaliyyətinin stimullaşdırılmasına, yeni sağlamlıq turizm müəssisələrinin yaradılmasına və göstərilən xidmətlərin keyfiyyətinin artırılmasına ehtiyac var.

**Cədvəl 2: Ölkəmizə sağlamlıq məqsədilə gələn turistlərin illər üzrə dinamikası**

| İllər | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|---|
| Cəmi gəlmə sayı (min nəfər) | 2484,1 | 2508,9 | 2297,8 | 2006,2 | 2248,8 | 2696,7 | 2849,6 | 3170,4 |
| Turizm məqsədilə (min nəfər) | 1985,9 | 2129,5 | 2159,7 | 1921,9 | 2044,7 | 2454,0 | 2605,3 | 2863,5 |
| Sağlamlıq turizmi (min nəfər) | 43,0 | 46,2 | 46,3 | 36,5 | 41,5 | 49,1 | 63,1 | 63,9 |
| Sağlamlıq turizminin cəmi turistlər üzrə payı (%) | 2,17 % | 2,17 % | 2,14 % | 1,90 % | 2,03 % | 2,00 % | 2,42 % | 2,23% |
| Əvvəlki illə müqayisədə faiz artımı | | | | | +6,84% | -1,30% | +21% | +1,3% |

**Mənbə:**https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf, 2021

Bildiyimiz kimi, insanların ölkəyə gəlməsi müxtəlif səbəblərdən; iş-biznes, müalicə almaq, yaxınlarını ziyarət etmək, istirahət etmək və sair ola bilər. 2 nömrəli cədvəl bizə 2012-2019-cu illər ərzində ölkəmizə gələn turistlərin ümumi sayı və onlardan hansı hissənin turizm məqsədilə gəldiyini öyrənməyə imkan verir. İnkişaf dinamikası üzrə təhlil aparmaqla bu sahədə görülən işlərin nə qədər effektiv olduğunu, artım göstəricilərinin olub-olmadığını və sair təyin etmək imkanımız olacaqdır. Təhlil zamanı aydın olur ki, 2014-2015-ci illər istisna olmaqla, ölkəmizə gələnlərin sayı artımla müşayiət olunmuşdur. Ümumi gələnlərin sayında turizm məqsədli səfər edənlərin payı da olduqca yüksəkdir. 2019-cu ildə bu göstərici 90%-dən artıqdır. Digər

məqsədlərlə ölkəyə səfər edənlər isə onları qane edən xidmət səviyyəsi və turizm potensialı ilə qarşılaşdıqları halda növbəti illərdə turist qismində gələnlərin arasında ola bilirlər. Fəslin əvvəlki başlığında izah edildi ki, Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişafı üçün güclü potensial və təbii şərait mövcuddur. Ancaq statistik nəticələr göstərir ki, bu imkanlardan heç də dolğun istifadə edilmir. Göründüyü kimi, tibbi turistlərin ümumi turistlərin sayındakı faiz göstəricisi olduqca aşağıdır. Ölkəyə səfər edənlərin sadəcə 1-3%-i sağlamlıq turizmi imkanlarından istifadə edir. Doğrudur, illər ərzində bu sahədə müəyyən mənada irəliləyiş qeydə alınmışdır. Ancaq bu nəzərə çarpacaq qədər ciddi artım deyildir. Sektorun inkişaf problemləri öyrənilməli və aradan qaldırılmalı, dünya turist bazarının tələblərinə müvafiq sağlamlıq turizm sektoru formalaşdırılmalıdır.

**Cədvəl 3: Azərbaycanın istirahət mərkəzlərinin bəzi mikroiqlim göstəriciləri**

| S/s | İstirahət mərkəzləri | Mövsüm dövründə günəşli saatların miqdarı | Komfort günlərin təkrarlanması (%-lə) | Mövsüm dövründə (t °C) | Havanın nisbi rütubətliyi (%-lə) | Küləyin orta sürəti il ərzində 15m/san çox | Aero və helio-terapiya imkanları |
|---|---|---|---|---|---|---|---|
| 1. | Abşeron | 1458 | 72-75 | 24-26 | 65-70 | 67 | Yüksək |
| 2. | Yalama-Nabran | 1337 | 65-70 | 22-25 | 65-72 | 37 | Orta |
| 3. | Şəki, Marxal | 1278 | 60-68 | 20-23 | 60 | 12 | Orta |
| 4. | Lənkəran | 1229 | 65-75 | 20-25 | 70 | 23 | Yaxşı |
| 5. | Masallı | 1210 | 62-68 | 20-22 | 70 | 14 | Orta |
| 6. | Göygöl, Hacıkənd | 1081 | 55-63 | 15-20 | 80 | – | Orta |
| 7. | İsmayıllı | 1285 | 60-65 | 22-24 | 55-60 | 15 | Orta |
| 8. | Qax, İlisu | 1236 | 58-4 | 20-23 | 61 | 5 | Orta |
| 9. | Naxçıvan | 1676 | 70-75 | 24-26 | 50 | 16 | Yüksək |
| 10. | Quba | 1220 | 65-70 | 18-22 | 69 | 6 | Orta |

**Mənbə:**https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf, 2021

3 nömrəli cədvəldə Azərbaycanın bölgələr üzrə sağlamlıq turizmi üçün potensial mikroiqlim imkanları öz əksini tapmışdır. Təhlildən aydın olur ki, Abşeron yarımadası və Naxçıvan MR günəşli günlərin sayının çox olması və illik orta temperaturun nisbətən yüksək olması səbəbindən helioterapiya imkanları genişdir. Azərbaycanda quru-subtropik iqlimin hakim olduğu ərazilər və düzənliklər helioterapiya üçün daha əlverişlidir. Dağətəyi və dağlıq ərazilər isə aeroterpiyaya müvafiq gəlir. Habelə, komfort hədlərinin və temperatur rejiminin təkrarlanma göstəriciləri dağətəyi və dağlı bölgələrin yay aylarında daha sərin keçdiyini göstərir. Bu da Abşeron yarımadasından və Aran bölgəsindən insanların aeroterpaiya məqsədilə həmin ərazilərə üz tutmasına səbəb olur.

**Cədvəl 4: Sanatoriya-kurort müəssisələri, istirahət evləri və istirahət bazalarının 2014-2020-ci illər üçün inkişaf dinamikası**

| | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|---|
| Sanatoriyaların, istirahət müəssisələrinin və istirahət bazaların sayı, cəmi (1-2 günlük daxil edilmədən) | 72 | 70 | 68 | 65 | 61 | 56 | 55 |
| onlarda çarpayıların(yerlərin) sayı | 10419 | 10004 | 9894 | 9570 | 9016 | 8552 | 8469 |
| Sanatoriyaların sayı | 32 | 32 | 30 | 30 | 29 | 28 | 28 |
| onlarda çarpayıların sayı | 5829 | 5726 | 5616 | 5707 | 5407 | 5266 | 5266 |
| Sanatoriyaların ümumi sayından uşaq sanatoriyalarının sayı | 14 | 13 | 13 | 13 | 13 | 12 | 12 |
| onlarda çarpayıların sayı | 1030 | 910 | 910 | 1001 | 1001 | 860 | 860 |
| Sağlamlıq mərkəzlərinin sayı | 5 | 5 | 5 | 4 | 4 | 4 | 4 |
| onlarda yerlərin sayı | 707 | 760 | 760 | 562 | 562 | 562 | 562 |
| İstirahət evlərinin, profilaktoriyaların və pansionatların sayı | 19 | 18 | 18 | 16 | 14 | 11 | 10 |
| onlarda yerlərin sayı | 2146 | 1898 | 1898 | 1681 | 1537 | 1364 | 1273 |
| İstirahət bazaları və digər istirahət müəssisələrinin sayı | 16 | 15 | 15 | 15 | 14 | 13 | 13 |
| onlarda yerlərin sayı | 1737 | 1620 | 1620 | 1620 | 1510 | 1360 | 1368 |

**Mənbə:** https://www.stat.gov.az/source/healthcare/, 2021

Statistika Komitəsinin rəsmi internet səhifəsində yayımlanan bu cədvəl ölkəmizdə tibbi turizm müəssisələrilə bağlı başlıca göstəriciləri özündə əks etdirir. Təhlildən aydın olur ki, ötən altı il ərzində mövcud sanatoriyaların, istirahət bazalarının və

müəssisələrinin sayı 17 ədəd azalaraq 55-ə düşmüşdür. 2020-ci ildə onların tərkibində sanatoriyaların sayı 28 ədəd olmuşdur ki, bu da ümumi dinamika üzrə 4 ədəd azalma deməkdir. Ümumi sanatoriyaların sayında uşaqlar üçün nəzərdə tutulanların payı 42% təşkil etmişdir. Ümumi göstəricini 4-5 ədəd olmaqla, ən az hissəni sağlamlıq müəssisələri təşkil edir.

### 2.3. Dünya ölkələrinin təcrübələri əsasında sağlamlıq turizminin inkişaf yollarının öyrənilməsi və mövcud problemlərin müəyyənləşdirilməsi

Ölkəmizin turizm sektorunun, habelə kurort-sağlamlıq turizminin mövcud vəziyyətinin araşdırılması, problemlərin öyrənilməsilə müəyyən olundu ki, dövlət səviyyəsində bu sahənin inkişaf etdirilməsi zərurət halını almışdır. Göstərilən xidmət səviyyəsinin yaxşılaşdırılması və beynəlxalq standartlara uyğun sağlamlıq turizm fəaliyyətinin həyata keçirilməsində dünya təcrübəsinin öyrənilməsi müsbət effektivliyi təmin edə bilər. Yüksək inkişaf göstəricilərinə malik ölkələrdə sağlamlıq turizminin inkişaf etdirilməsi məqsədilə görülən işlərin öyrənilməsi və təhlil edilməsi ölkəmizdə onların effektiv tətbiq üsullarının ortaya çıxmasına səbəb olacaqdır. Bu məqsədlə, biz müxtəlif ölkələrdə kurort sağlamlıq turizmi ilə bağlı mövcud vəziyyəti inkişaf proqramlarını araşdıracağıq.

2000-ci illərdən başlayaraq qonşu Türkiyə Cümhuriyyətində sağlamlıq turizmi sürətlə inkişaf etməyə başalmışdır. Hələ ötən əsrin sonlarında İtaliya və Yunanıstanla müqayisədə xeyli geri qalan və regionda "ağ ləkə" hesab edilən Türkiyə tibbi turizmi həyata keçirilən islahatlar hesabına inkişaf etmişdir. Ölkənin beynəlxalq turizm mərkəzlərindən birinə çevrilməsini hədəfləyən iqtisadi islahatlara aşağıdakılar aiddir (Şanlıoğlu Ö., Özcan E., 2017):

- Turizmin beynəlmiləlləşdirilməsi;
- Dövlət nəzarəti saxlanılmaqla bazar iqtisadiyyatına tam keçidin təmin edilməsi;
- Sahənin inkişafına dəstək verəcək maliyyə yardımlarının, dotasiyaların və sair ayrılması;

- Bələdiyyələr və Turizm Nazirliyi arasında vəzifə bölgüsünün dəqiqliyi;
- Xidmət personalının və bələdçilərin yüksək kadr hazırlığının təmin edilməsi;
- Tibbi xidmətlərdən istifadə imkanlarının genişləndirilməsi və səhiyyə infrastrukturunun yaxşılaşdırılması və sair.

İnkişaf etmiş ölkələr qrupuna daxil olan ölkələrdə müalicə və əməliyyat xərclərinin olduqca yüksək həddə olması insanları yeni ərazilərə doğru yönəltmişdi. Türkiyə Cümhuriyyəti bu faktoru doğru qiymətləndirərək yararlanmağı bacardı. Belə ki, ölkədə tibbi təhsilin keyfiyyəti artırıldı, səhiyyə işçilərinin xaricdə təhsil imkanları genişləndirildi. Lakin yüksək ixtisaslı xidmət işçilərinin təklif etdiyi qiymətlər Almaniya, İsrail və sair bu sahədə hegemon hesab edilən ölkələrlə müqayisədə daha aşağı idi. Məhz bu faktor Türkiyənin qısa müddət ərzində tibbi turizmin mərkəzi ölkələrindən birinə çevrilməsinə səbəbiyyət verdi. Sahənin inkişafını təmin edən məsələlərdən biri də, ölkənin turizm potensialının və turist qəbulunun geniş olması ilə yanaşı ölkəyə daxilolma və qalma prosedurlarının sadələşdirilməsi idi. Türkiyədə tibbi turizm dövlət və özəl sektorun əməkdaşlığı hesabına yüksək keyfiyyətli xidmətlər təklif edən, qərb səhiyyəsinə rəqib ola biləcək, müasir texnika və texnologiyalardan, innovativ yeniliklərdən istifadə edən, günün tələblərinə və dünya turist bazarının istəyinə cavab verə bilən başlıca sektorlardan birinə çevrildi. Burada atılan ən effektiv addımlardan biri də sağlamlıq müəssisələrinin dünya standartlarına uyğunlaşdırılması olmuşdur. Hazırda ildə bir milyondan çox tibbi turist qəbul edən Türkiyə Cümhuriyyətində səhiyyə müəssisələri TEMOS International və JCI standartlarına uyğun olaraq sertifikatlaşdırılmışdır. Turistlər tibbi turizm məqsədilə səfər edəcəyə ölkələr sırasında ilk yerləri beynəlxalq sertifikatlarla akreditasiya olunmuş səhiyyə müəssisələrinin olduğu ölkələr tutur. Bu standartlar ölkənin səhiyyə strukturunun və göstərdiyi xidmətin beynəlxalq səviyyədə reputasiya qazanmasına və bəlli bir imic formalaşdırılmasına imkan yaradır. Hazırda dünya tibbi turizm sferasında keçərli əsas sertifikat JCI (Joint Comission International) sertifikatıdır. Türkiyə isə dünya medikal turizm sferasında Tailanddan sonra ikinci JCI tərəfindən ən çox akreditasiya edilmiş

sağlamlıq müəssisəsinə sahib ölkədir (http://dosyamerkez.saglik.gov.tr, 2020).

Türkiyədə xəstələrin beynəlxalq siniflendirilməsi aşağıdakı şəkildədir:

1. Sağlamlıq turizmi sektoruna daxil olan xəstələr;
2. Başqa məqsədlərlə səfər edən, ancaq turist olduğu müddətdə müalicəyə ehtiyac duyan xəstələr;
3. Tibbi məsələlərdə ikili müqavilələr əsasında əməkdaşlıq edilən ölkələrdən gələn xəstələr;
4. Sosial təminat qurumları vasitəsilə ölkəyə gələn xəstələr.

McKinsey və Company tərəfindən aparılan araşdırmalarda məlum olmuşdur ki, insanların öz ölkələrindən kənarda müalicə almalarının başlıca səbəbləri: yüksək səviyyəli tibbi texnikalardan istifadənin və texnoloji inkişafın olması (40%), keyfiyyətli tibbi müalicə və medikal üsulların olması (32%), daha sürətli xidmət əldə etmə imkanının olması (15%), ödəmələrin səviyyəsinin yerli qiymətlərlə müqayisədə aşağı olması (9%) və digər spesifik səbəblərdir (4%). Bu sahədə Türkiyədə aparılan araşdırmanın nəticələri əsasında Medikal Türkiyə Hesabatı tərtib edilmişdir. Hesabata görə turistlərin medikal turizm məqsədilə Türkiyəni seçməsinin başlıca səbəbləri sırasında xəstəxanaların və  sağlamlıq müəssisələrinin dünya turist bazarında keyfiyyətilə tanınması, qiymət faktoru, daha öncə bu xidmətlərdən istifadə edənlərin yönləndirmələri və sairdir. Beləliklə, insanlar burada istirahət etməklə yanaşı, yüksək keyfiyyətli və nisbətən aşağı büdcə tələb edən müalicə üsullarından da yararlana bilirlər (https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/, 2018).

Dünyanın ən qədim medikal turizm mərkəzlərindən biri də Hindistnadır. Hələ qədim dövrlərdən yoga və ayurvedik tibbi ilə tanınan Hindistanda tibbi turizm buddizmin geniş yayılması ilə alternativ sahələrdən birinə çevrilmişdir. Tələb olunan ödəmələrin Avropa səhiyyəsilə müqayisədə aşağı olması, ən son tibbi texnologiyalardan istifadə edilməsi, xidmətlərin böyük bir hissəsində ingiliscənin hakim olması, keyfiyyətli tibbi xidmətlərin göstərilməsi, beynəlxalq akreditasiyalarla dəstəklənən sağlamlıq müəssisələrinin çoxluğu, müalicə alma imkanlarının geniş

olması kimi faktorlar, xüsusilə, qərb ölkələrindən hər il on minlərlə insanın şəfa tapmaq üçün Hindistana səfər etməsinə səbəb olmuşdur. Burada həmçinin çətin cərrahi əməliyyatlar da yüksək keyfiyyətlə həyata keçirilməkdədir. Tibbi turizm üçün Hindistanı seçənlərin əsas müraciət sahələri ürək-damar xəstəlikləri, sinir sistemi və göz xəstəlikləri, müxtəlif növ xərçəng, orqan nəqli, sonsuzluq, kosmetoloji müalicələr, ortopedik əməliyyatlar və sairdir.

Malayziya ölkədə Səhiyyə Nazirliyi daxilində sağlamlıq turizmi üçün ayrıca qurum təşkil edən və kurort-sağlamlıq turizmi üzərindən uzunmüddətli iqtisadi siyasət quran nadir ölkələrdəndir. Malayziya Səhiyyə Nazirliyi ölkənin medikal turizm imkanlarının tanıdılması və inkişaf etdirilməsi üçün strateji planların hazırlanmasını və tətbiqini, digər ölkələrlə tibbi turizmlə bağlı əməkdaşlıqların qurulmasını, gömrük prosedurаlarının sürətləndirilməsini, viza alma və müddətini uzatmaqla bağlı əməliyyatların sadələşdirilməsini və tibbi turizm sənayesinin inkişaf etdirilməsini nəzərdə tutan fəaliyyət həyata keçirir. Malayziya ölkəyə müalicə almaq məqsədilə üz tutan turistlərin böyük bir qisminin Orta Asiya və İndoneziyadan (80%-ə qədəri) olduğunu bildiyindən dini faktorlardan ustalıqla istifadə edir. Belə ki, burada göstərilən tibbi xidmətlər islami şərtlərə tam uyğunlaşdırılmaqda və turistlər islam dininin tələblərinə uyğun qida və içkilərlə təmin edilməkdədir. Əlbəttə, bunlarla yanaşı aşağı maliyyə xərclərinin olması, keyfiyyətli tibbi xidmətlərin mövcudluğu, malay dilinin qonşu ölkələrin dillərilə olduqca oxşar olması və sair kimi digər güclü səbəblər də vardır (https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/, 2018).

Cənub və cənub-şərqi Asiyada tibbi turizm sahəsində güclü rəqabət olmasına baxmayaraq, Tailand bu ölkələr arasında medikal turizmin ən yüksək inkişaf sürəti tapdığı ölkə hesab edilə bilər. Texnika və texnologiyaların sürətlli inkişafı, səhiyyə sektorunda müasir üsullardan geniş istifadə, tibbi xərclərin olduqca aşağı səviyyədə olması, Avropa ölkələrində olduğu kimi uzun gözləmələrin və sıraların olmaması, tibbi turizm xidmətləri təklif edən çoxlu sayda agentliklərin olması, beynəlxalq uçuşlar üçün biletlərin daha ucuz olması Tailandı qısa zamanda medikal turizmin mərkəzi

ölkələrindən birinə çevirmişdi. Ötən əsrin 70-ci illərdinən başlayaraq, Tailand ölkəyə səfər edən tibbi turistlər üçün başda plastik cərrahi əməliyyatlar olmaqla çox sayda tibbi xidmət göstərməkdədir.

Dünya turizm bazarında əsas paya sahib olan ölkələrin medikal turizmlə bağlı təcrübələrinin araşdırılması ilə müəyyən edilmişdir ki,  sağlamlıq turizmi ölkə iqtisadiyyatına xarici valyuta axınını təmin edəcək güclü alternativ sektorlardan biridir. Bu sahədə mövcud potensialın düzgün qiymətləndirilməsi və planlı şəkildə sahənin inkişaf etdirilməsi ölkəmizə müsbət effekt verə bilər. Qeyri-neft sektorlarının inkişafı proqramları daxilində sağlamlıq turizminə xüsusi diqqət ayrılması labüddür.

# III FƏSİL. AZƏRBAYCAN REGİONLARINDA KURORT-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Azərbaycan turizmində sağlamlıq turizminin rol və önəminin artırılması

Ölkəmizin zəngin təbii, iqlmi, balneoloji və sair resurslara sahib olduğu hamımıza məlumdur. Lakin iqtisadi inkişafın hazırkı mərhələsində milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi üçün təbii resurslara sahib olmaq yetərli deyil. Mövcud vəziyyəti düzgün qiymətləndirmək, potensialdan doğru və stratejik istifadəni təmin etmək, müasir bazarın tələblərilə ayaqlaşmaq mühüm əhəmiyyət kəsb edir. Dünya praktikasına baxdığımızda zəngin təbii resurslara malik olduğu halda əhalisi yoxsulluqla mübarizə aparan ölkələr görürük (məsələn, Nigeriya) və ya əksinə təbii resurs imkanlarının olmadığı və ya zəif olduğu halda dünya bazarında hegemon olan ölkələr görürük (Yaponiya, Norveç). Bu iki qütb ölkələri arasındakı fərq mövcud resurslardan və imkanlardan səmərəli istifadə etmə, effektiv idarəetmə və tənzimləmənin olmasıdır.

Ölkəmizdə müalicə turizminin formalaşması tarixi on ikinci əsrə qədər gedib çıxır. Böyük ipək yolunun, şərq və qərbi birləşdirən yolların ölkəmizin ərazisindən keçməsi ölkəyə çoxlu sayda turistin gəlməsinə yol açırdı. İlk vaxtlarda Naftalan müalicə neftindən istifadə edilirdi. Ölkə səviyyəsində sağlamlıq turizminin inkişafı isə ötən əsrdən başlamışdır. Mineral suların, müalicəvi palçığın və digər resursların kəşfi sektorun inkişaf dairəsini genişləndirmişdir. Ölkədə hansı müalicəvi resursların olması burada fəaliyyət göstərəcək kurortların, sağlamlıq müəssisələrinin ixtisaslaşma istiqamətlərini müəyyən edir. Bu resursların potensial ehtiyyatı isə həmin müəssisələrin təminatı kimi çıxış edir. Ölkədə mövcud olan tibbi resurslardan istifadə imkanlarının genişliyi və səmərəliliyi cəlb edilən iqtisadi resurslardan bilavasitə asılıdır. İqtisadi resurslar dedikdə, maliyyə ehtiyyatları, dövlət tərəfindən təmin edilən inkişaf imkanları, ixtisaslı kadr ehtiyyatının olması, sektor üzrə sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması, ölkəyə turist qəbulu ilə bağlı baryerlərin olub-olmaması,

istehsal imkanları və sair nəzərdə tutula bilər. Sağlamlıq turizmi ehtiyyatları bütün növ balneoloji, landşaft və iqlim resurslarını özündə ehtiva edir. Sağlamlıq-kurort ehtiyyatlarından istifadə etməklə xəstələrin müalicədən sonrakı bərpası, xroniki xəstəliklərin müalicəsi, rekreasiya tədbirləri, sağlamlığın profilaktikası və bərpası həyata keçirilir. Ölkəmizdə kurort ehtiyyatlarının təsnifatı mövcud texnika və texnologiya nəzərə alınmaqla və insanların sağlamlıqlarının bərpası əsas götürülməklə aşağıdakı xüsusiyyətlər əsasında aparılır:

1. Balneoloji ehtiyyat potensialı;
2. Landşaft-iqlim xüsusiyyətləri;
3. Ərazinin ekoloji xüsusiyyətləri və mənzərə müxtəlifliyi;
4. Müalicə-sağlamlıq turizmindən istifadə üçün yararlılıq ;
5. Naftalan nefti və müalicəvi palçıq vannaları.

Bütün növ termal və mineral sular balneoloji ehtiyyatlar qrupuna aid edilməklə, sanatoriya və kurortların başlıca müalicə ehtiyyatı hesab edilir. Dünya miqyasında bilinən bütün növ balneoloji ehtiyyatların böyük bir qisminə Azərbaycanda rast gəlinməkdədir. Mineral sular temperaturuna görə soyuq, sərin, mülayim, isti, qaynar və çox qaynar olmaqla altı qrupa ayrılır. Ölkəmizdə mineral sular üçün müəyyən edilən ən aşağı temperatur göstəricisi $4^0$C, ən yüksək temperatur isə $64^0$C təşkil edir. Soyuq hesab edilən mineral sular temperaturu $17^0$C-ə qədər olmaqla Tovuz, Naxçıvan və Gədəbəy ərazilərində yayılmışdır, kimyəvi tərkibi karbon qazlıdır. Sərin mineral suların yayıldığı ərazi Gədəbəy, Şuşa, Daşkəsən və Laçın olmaqla, tərkibi hidrokarbonatlarla zəngindir. Hidrokarbonat və natrum-xlor tərkibli mülayim mineral sulara isə Dağlıq Şirvan, Şəki-Zaqatala və Quba-Xaçmaz zonalarında rast gəlinir. Metan qazlı, hidrogen-sulfidli və kükürdlü isti sular temperaturu $37^0$C-ə qədər olmaqla Abşeron yarımadası, Talış zonası və Nabranda yayılmışdır. Azot, sulfit və kükürd tərkibli qaynar sular Kəlbəcər, Talış dağları və Abşeronda rast gəlinəndir. Və nəhayət çox qaynar hesab edilən radonlu, kükürdlü qazlı suların yaıldığı ərazi Talış-Lənkəran bölgəsi hesab edilir (“Azərbaycanda sağlamlıq turizmi –cari vəziyyət və inkişaf perspektivləri”, 2021).

Olduqca mürəkkəb qaz və duz birləşmələrinə sahib olan mineral və termal suların dadına görə təsnifləşdirilməsi bu şəkildədir:

- Duzlu-acı sular – Masallıda "Alaşa", Lənkəranda "İbadisu" və "Meşəsu";
- Acı sular – Babəkdə "Kizilvank", Ağstafada "Acıbulaq";
- Duzlu sular – Şuşada "Tuq";
- Turşsular – Gədəbəydə "Çayqarışan" və "Slavyanka", Babəkdə "Badamlı".

Tərkibində hidrogen-sulfidin çox olduğu mineral sular qazın miqdarından asılı olaraq müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Ölkəmizdə bu kimi kükürdlü suların sayı çoxdur və onlar, əsasən, dəri xəstəliklərinin müalicəsi məqsədilə istifadə edilməkdədir. Hidrogen-sulfidli sulara Naxçıvan MR-da, Quba-Xaçmaz bölgəsində, Lənkəran-Astara və Abşeron ərazilərində də rast gəlinməkdədir.

Böyük Qafqazın və Talış dağlarının cənub ətəklərində azot tərkibli sular üstünlük təşkil edir. Temperaturu 50-55$^{0}$C-ə qədər olan azotlu sular kurort-sağlamlıq turizmində geniş istifadə olunur. Respublika ərazisində 100-ə yaxın azotlu mineral su mənbəyi mövcuddur. Bunlardan ən məhşurları Lənkəranda Bigəvər, Alaşa, Meşəsu və Quba rayonu ərazisində yerləşən Xaltandır.

Dayaq-hərəkət orqanlarının və dəri xəstəliklərinin müalicəsində geniş istifadə olunan metan qazlı mineral suların tibbi xüsusiyyətləri hələ tam öyrənilməmişdir. Təbii bulaqlarda və buruqlar vasitəsilə yer səthinə çıxan bu sulara Talış dağlarında, Mişovdağ və Babazənən yataqlarında, Abşeronda buruq sularında və duzlu göllərdə, Neftçala və Salyanda rast gəlinir.

Ölkə ərazisində ən geniş yayılmış mineral sular karbonl tərkibli olanlardır. Bu tip sular ümumi termal və mineral suların 35%-ə qədərini təşkil edir. Karbonlu sulara yalnız Naxçıvan MR və Kiçik Qafqaz zonasında rast gəlinir. Ən məşhurları Culfada Darıdağ, Babəkdə Badamlı, Kəlbəcərdə İstisu, Ordubadda Nəhacir, Şuşada Turşsu və Gədəbəydə Qızılcadır.

Yüksək farmakoloji təsirə malik sular mərgümüşlü-dəmirli mineral sulardır. Bu tip termal və mineral suların tərkibi sulfat və dəmirlə zəngin olur, o səbəbdəndir ki,

vulkanik süxurların yayıldığı ərazilərdə və oksidləşmə dərəcəsi yüksək olan filiz yataqlarında daha çox rast gəlinir. Əsasən, uroloji və mədə-bağırsaq xəstəliklərinin müalicəsi məqsədilə istifadə edilən bu sular Naxçıvan MR-da və Kiçik Qafqazda daha geniş yayılmışdır ("Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı", 07.02.2009).

Dünyada palçıq vulkanlarına görə ilk yeri tutan ölkəmizdə 350-dən çox palçıq vulkanının olduğu qeyd edilməkdədir. Sağlamlıq turizmində istifadə edilə biləcək qiymətli təbii sərvətlərdən biri də məhz bu vulkanlardır. Lakin palçıq vulkanlarının bütün növləri müalicə üçün yararlı deyildir. Yalnız tərkibində hidrogen-sulfidin, yodun, üzvi birləşmələrin, naftenlərin və bromun çox olduğu palçıqlar bu məqsədlə istifadə oluna bilir. Hazırda vulkanik təpə palçığından və lil palçığından müalicə məqsədilə istifadə edilməkdədir. Palçıq vulkanlarını mövcud potensialı ilə müqayisədə ən zəif istifadə edilən resurslardan biri kimi qiymətləndirmək olar. Qırx ilə yaxın müddətdə kurort şəraitində Masazır gölünün palçığından müalicə məqsədilə istifadə olunsa da, göldən duz çıxarılması ilə bağlı işlər bu ərazidə sağlamlıq turizmini son on ildə xeyli geri salmışdır. Dünya təcrübəsində oynaq və dəri xəstəliklərinin, əsəb sistemi xəstəliklərinin müalicəsinə istifadə olunan palçıqlar təkcə kurort və sanatoriya şəraitində deyil, ayrı-ayrı xəstəxanalarda da tətbiq edilməkdədir. Hazırda Yeni Zellandiyada, Krımda və Rusiya Federasiyasında bunun pratik tətbiqi mövcuddur. Vulkan palçığının müalicə əhəmiyyətliliyini artıran xüsusiyyətlər tərkibində qələvilərin miqdarı, palçığın istilik tutumu, elastikliyi, yapışqanlığı və sairdir. Kimyəvi tərkibinin zənginliyinə görə Naftalan neftinə yaxın olan vulkan palçıqları ətraf əsəb sisteminin, oynaqların, dəri xəstəliklərinin, urologiya, ginekologiya, mədə-bağırsaq xəstəliklərinin, şəkərli diabetin, boyun osteoxondrozunun, dayaq-hərəkət aparatının, onurğanın müalicəsində yüksək effektivliyə malikdir. Vulkan mənşəli palçığı digər növ palçıqlardan fərqləndirən əsas xüsusiyyətlər aşağıdakılardır:

- Digər palçıqlara müqayisədə daha dərindən yer səthinə çıxan vulkanik palçıqların müalicə üçün tətbiq sahəsi daha genişdir. Belə ki, sapropel, lil və torf tərkibli

palçıqlar yalnız dayaq-hərəkət aparatının müalicəsində istifadə edilə bildiyi halda, vulkanik palçıqlar ondan çox sahədə tətbiq edilə bilir, kosmetik vasitələrin və kremlərin hazırlanmasında da istifadə edilə bilir;

- Tərkibi yod, manqan və bromla daha zəngin olduğundan effektivliyi daha yüksəkdir;
- Yerin dərin qatlarından çıxdığı üçün minimum antropogen təsirə məruz qalır;
- Özünəməxsus terapevtik təsirlərə və mineral birləşmələrə sahibdir.

Ölkəmizin sahib olduğu ən mühüm kurort rsurslarından biri də iqlim ehtiyyatlarıdır. Təsərrüfat üçün olduğu qədər istirahət və müalicə üçü də yararlı olan iqlim şəraiti ölkə ərazisinin coğrafi yerləşməsi və iqlim parametrlərilə birbaşa əlaqəlidir. İstirahət və müalicə komfortluğunu təmin edən bu paramterlərə temperatur, küləyin sürəti, nisbi rütubətlilik, günəşli günlərin sayı və sair aid edilir. Kurortlarda və sağlamlıq mərkəzlərində müalicə və istirahət profilini ərazinin aldığı günəş radiasiyasının miqdarı müəyyən edir. Həmçinin helioterapiya müalicələrinin aparıla bilməsi üçün il ərzində günəşli günlərin sayının müəyyən həddə olması mütləqdir. Bütün dağətəyi və dağlıq zonalarda mikroiqlim xüsusiyyətlərinə malik ərazilərə rast gəlinir. Burada meşə zolaqlarının geniş olması və havanın oksigenlə zənginliyi aeroterapiya üçün əlverişli şərait yaradır. Aeroterapiya məqsədilə istifadə oluna biləcək əlverişli yerlər Lerikdə Zuvand çökəkliyi, Oğuzda Xalxal və Fil-Fili, Şəkidə Xan yaylağı, Şamaxıda Çuxuryurd istiqaməti, Tovuzda Fındıqlı meşəsi, Gədəbəydə Miskinli, Şahbuzda Batabat gölü ətrafı və Şuşada Topxana meşəsi misal göstərilə bilər (Ağakişiyev Ə.R., Soltanova H.B., Qasımova M.S., 2017).

Helioterapiya və talassoterapiya imkanları isə bol günəşli, yodlu, quru iqlim şəraiti olan, narın qumla örtülmüş çimərlikləri olan dəniz sahilində rast gəlinir. Təbii ki, Lənkəranın qara qumlu sahilləri və şimal zonalarının Xəzər sahili qızıl çimərlikləri helioterapiya və talassoterapiya üçün olduqca əlverişlidir.

Azərbaycanda həmçinin dağ kurortlarının inkişaf etdirilməsi üçün yetərli iqlim şəraiti vardır. Son illərdə aparılan islahatlar ölkəmizdə dağ turizminin inkişafını

sürətləndirmişdir. Bununla yanaşı dağ iqlim ehtiyyatlarından müalicə-sağlamlıq məqsədilə istifadə edilməsi üçün potensial mövcuddur. Qeyd edim ki, Azərbaycanın dağ-iqlim kurortları iqlim parametrlərinə görə Fransa, İtaliya, Avstriya və İsveçrənin Alp dağlarının göstəriciləri ilə oxşardır. Dağ-iqlim kurortları üçün əlverişli ərazilər İsmayıllı, Qusar, Şamaxı, Gədəbəy, Daşkəsən, Ordubad, Şəki, Tovuz, Lerik, Qəbələ, Yardımlı, Şahbuz və Quba inzibati rayonları ərazisində mövcuddur. Ölkəmizdə kurort-rekreasiya ehtiyyatlarından uzunmüddətli və qısa müddətli dövrdə tam həcmdə istifadə edilə bilməməsinin səbəblərini aşağıdakı kimi sıralamaq olar:

- Sağlamlıq müəssisələrində çarpayı fondunun tələbatı ödəyə bilməməsi;
- Göstərilən xidmətlərin beynəlxalq standartlara cavab verməməsi;
- Müalicə-sağlamlıq ehtiyatları ilə zəngin ərazilərdə nəqliyyat infrastrukturunun zəif təminatı;
- Bir çox kurort və sanatoriyaların tərkibində hələ də məcburi köçkünlərin yerləşməsi və sair.

Kurort-sağlamlıq turizmindən yararlanmaq məqsədilə ölkmizə gələnlərin əsas hissəsini MDB ölkələrindən gələnlər təşkil edir. Onların arasında Ukrayna, Özbəkistan, Belarusiya və Rusiya Federasiyasından gələn turistlər üstünlük təşkil edir. Naftalan kurortları turistlərin ən çox üz tutduğu sağlamlıq müəssisələridir. Bu faktı Naftalanın dünya turizm bazarında hələ ötən əsrdən müəyyən imicə sahib olması və insanlar tərəfindən tanınması ilə, xüsusilə də, SSRİ dövründən fəaliyyət göstərməsilə izah etmək olar. İkinci ən çox turist qəbul edən mərkəzlər "Qalaaltı Hotel&Spa", Abşeron yarımadasında yerləşən sanatoriyalar və Duzdağ kurortlarıdır. Digər müalicə-sağlamlıq mərkəzlərinin az ziyarət edilməsinin səbəbləri sırasında beynəlxalq səviyyədə zəif tanınması, göstərilən xidmətlərin keyfiyyət göstəricilərinin dünya standartlarından aşağı olması, sağlamlıq müəsssəsi kimi tam ixtisaslaşmaması, dünya bazarında zəif təbliğ edilməsi və sair ola bilər.

## 3.2. Kurort-sağlamlıq turizminin inkişaf perspektivlərinin qiymətləndirilməsi və dövlətin müalicə turizminə dair siyasəti

2015-ci ildən etibarən qeyri-neft sektorunun inkişaf etdirilməsini və büdcəyə daxilolmalarda neft-qaz gəlirlərinin payının azaldılmasını qarşıya hədəf olaraq qoyan respublikamızda milli iqtisadiyyatın inkişaf prioritetlərindən biri kimi turizm sektoru, habelə kurort-sağlamlıq turizmi də qeyd edilmişdir. Bu səbəbdəndir ki, dövlət səviyyəsində həyata keçirilən iqtisadi inkişaf proqramlarında bu sahəyə xüsusi yer ayrılmışdır. Hazırda ökəmizdə müalicə-sağlamlıq turizminin tənzimlənməsi müvafiq qərarlar, qanunvericilik aktları, iqtisadi inkişaf proqramları və səlahiyyətləri dövlət orqanları hesabına həyata keçirilir. Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə görə ölkə ərazisində kurort-sağlamlıq turizmi ilə məşğul olan, habelə kurort və sanatoriyalar təşkil edən fiziki və hüquqi şəxslər Səhiyyə Nazirliyinin təqdim etdiyi lisenziyanı almalıdırlar. Bu lisenziyalar "Özəl tibb fəaliyyəti haqqında" qanun əsasında təqdim edilir. Qeyd edilən lisenziyanın dəyəri 2250 manat məbləğində müəyyən edilmişdir. Sağlamlıq-turizm fəaliyyətinin tənzimlənməsi "Təbiəti mühafizə və təbiətdən istifadə haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Kurortlar haqqında Nümunəvi Əsasnamə"-nin təsdiq edilməsi ilə bağlı qərar və sair müvafiq qanunlar əsasında aparılır.

Seçilmiş ərazinin müalicə mərkəzi kimi tanınması geoloji, tibbi-bioloji, hidrogeoloji və kurortoloji tədqiqatlara əsaslanaraq müəyyən qanunvericilik əsasında həyata keçirilir.

Azərbaycan Respublikasının ərazisində yerləşən sanatoriya və kurortlara Naftalan rayonu ərazisində fəaliyyət göstərən müvafiq müəssisələr, Kurort Səhmdar Cəmiyyətinə daxil olan müəssisələr, "Qafqaz Thermal & Spa Hotel", "Qalaalti Hotel & Spa", "Lankaran Springs Wellness Resort" və digər kiçik sağlamlıq müəssisələri daxildir. Sadalanan kurort-sağlamlıq müəssisələrini digərlərindən fərqləndirən cəhət bazar payının yüksək olması, göstərilən xidmətlərin müxtəlifliyi və təklif etdiyi məhsulların çeşidliliyidir.

Kurort-sanatoriya tipli turizm müəssisələrinin xarakterik cəhətlərindən biri mövsümilik probleminin az olmasıdır. Yalnız iqlim və dəniz kurortlarında mövsümilik nəzərə çarpır, digər bütün növ kurortlar və sanatoriyalar ilin bütün fəsillərində tam həcmdə xidmət göstərmək potensialına sahibdir. Sanatoriya və kurort xidmətlərinin əsas istehlakçıları orta və yaşlı nəsil hesab edilir. Bu səbəbdən, xidmətlər fərdi tələbatlara uyğun formalaşdırılır.

Ölkəmizdə yüksək inkişaf potensialı olan sağlamlıq turizminin gəlirli sektorlardan birinə çevrilməsi, resurslardan tam həcmdə və səmərəli istifadənin təmin edilməsi üçün bir sıra tədbirlərin görülməsi vacibdir. İlk növbədə, kiçik və orta sahibkarlığın sahəyə marağının artırılması üçün dövlət səviyyəsində proqramlar həyata keçirilə bilər. Yerli turizm xidmətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması da mühüm məsələlərdəndir. Kurort-sağlamlıq turizminin inkişafı istiqamətində aşağıda sadalanan addımların atılması effektiv nəticələr təmin edə bilər:

- Sektor üzrə dövlət və özəl sektorun əməkdaşlığının gücləndirilməsi;
- Sağlamlıq turizminin investisiya cəlbediciliyinin artırılması;
- Müalicə-sağlamlıq müəssisələrinin dünya səviyyəli turizm sərgilərində iştirakının təmin edilməsi;
- Sağlamlıq mərkəzlərinin beynəlxalq sertfikatlarla akreditasiya edilməsi;
- Sağlamlıq turizmi üçün hədəf ölkələrin müəyyən edilməsi;
- Tur operatorlarının, turizm agentliklərinin xarici bazarlarda reklam və satışa həvəsləndirilməsi;
- Kurort-sağlamlıq müəssisələrinin rəqabətqabiliyyətliliyinin artırılması;
- Hədəf ölkələr qrupunda insanların gəlir səviyyəsinin, ölkənin texnoloji təminat səviyyəsinin, tibbi xidmətlərin keyfiyyətinin və qiymətlərin araşdırılması, əldə olunan məlumatlar əsasında hədəf kütləsinə uyğun spesifik proqramların işlənib hazırlanması və sair.

Ölkəmizdə kurort-sağlamlıq turizminin inkişaf etdirilməsi üçün geniş imkanların

olmasına baxmayaraq resurslardan idarənin zəifliyi, özəl sektorun payının az olması, marketinq planlaşdırılmasının zəif olması kimi faktorlar sağlamlıq turizminin rəqabətqabiliyyətliliyini aşağı salır. Sağlamlıq xidmətləri təklif edən turizm müəssisələrinin beynəlxlaq turizm sərgilərində, forumlarda iştirakının təmin edilməsi bir tərəfdən bu sahədə dünya təcrübəsinin və yeniliklərin öyrənilməsini təmin edəcək, digər tərəfdən ölkəmizin kurort-sağlamlıq turizmi beynəlxalq arenada tanıdılmış olacaqdır. Turizm subyektlərində xidmət çeşidliliyinin artırılması rəqabət üstünlüyünü təmin edəcəkdir. Kurort-sağlamlıq turizm müəssisələri yüksək gəlir təmin edəcək xidmətlərin təşkilinə üstünlük verməli, dünya standartlarına uyğun fəaliyyəti təmin etməlidirlər. Həmçinin bu sahədə yeni texnika və texnologiyaların tətbiqi, innovativ yeniliklərdən yararlanmaq sağlamlıq turizminin bir sektor kimi güclənməsinə imkan verə bilər. Təbii ki, maliyyə rahatlığı təmin edilən subyektlər reklam və marketinq, idarəetmə və innovasiyaların tətbiqi kimi prosedurlara daha çox yer vermək imkanı əldə edirlər.

Ölkəmizin müalicə-sağlamlıq turizminin beynəlxalq səviyyədə tanınması və ilk növbədə region ölkələrilə rəqabət gücünün artırılması üçün istər özəl sektor miqyasında, istərsə də dövlət səviyyəsində bir sıra addımların atılması və işlərin görülmısi labüddür. Aşağıda sadalanan tədbirlərin görülməsi məqsədəuyğun olar:

- **Kurort-sağlamlıq turizmi daxilində xidmət paketlərinin təklif edilməsi.** Yerli sağlamlıq müəssisələrinin öz xidmətlərini və üstünlüklərini təklif edə biləcəyi reklam paketlərinin təşkilinə ehtiyacı var. Dünya təcrübəsinə nəzər saldıqda bu əməlyyatların səyahət agentlikləri tərəfindən həyata keçirildiyinin şahidi oluruq. Ölkəmizdə bu tip agentliklərinin sayının artırılması və onların ixtisaslaşdırılması sektorun inkişafını sürətləndirə bilər.

- **Mobil sağlamlıq mərkəzlərinin təşkili.** Mövcud resurslardan daha səmərəli istifadənin təmini üçün xüsusən balneoloji, iqlim resurslarının cəmləşdiyi ərazilərdə bu tip mərkəzlərin yaradılması müsbət effekt verə bilər. Belə destinasiyaların Tovuz, Şabran, Gədəbəy, Qax, Lerik, Zaqatala və Masallıda qurulması məqsədəuyğundur.

- **Sağlamlıq obyektlərində asudə vaxtın təşkili məqsədilə animasiya proqramlarının hazırlanması.** Azərbaycanın turizm imkanlarının tanıdılmasında müəyyən müddəti əhatə edən animasiya proqramlarının hazırlanması, həftəlik və ya günlük olaraq proqramlaşdırılması, habelə həftəsonu turistlərin müxtəlif ekskursiyalara cəlb edilməsi kimi tədbirlərin təşkili də mühüm rol oynaya bilər.

- **Müəyyən sağlamlıq turizmi resurslarının dünya turizm bazarında brendləşməsinə nail olmaq.** Bununla regional səviyyədə turizm imkanları və turist hədəf bazarı genişləndirilə bilər.

- **Naftalan neftindən kosmetoloji məhsulların istehsal edilməsi.** İlk öncə onu qeyd etmək istərdim ki, Naftalanın müalicəvi neftindən Xorvatiya və Çexiya kimi Avropa ölkələrinin məşhur kurortlarında istifadə edilir. Bu məhsulun xam formada ixracının azaldılması üçün həmin ehtiyyatların yerli səviyyədə istehsala cəlb edilməsi mütləqdir. Naftalan neftinin kosmetologiya üçün istehsal mümkünlüyü araşdırılmalı və bu xammal hazır məhsula çevrildikdən sonra ixrac edilməlidir. Bildiyimiz kimi, milli iqtisadiyyatımızın başlıca problemlərindən biri ixrac çeşidliliyinin az olması və xammal ağırlıqlı olmasıdır. Bu yolla dünya bazarına yeni və müasir bazarın tələbinə uyğun innovativ məhsullarla çıxma imkanımız var. İstehsal ediləcək kosmetik vasitələr SPA kimi bir sıra sağlamlıq turizm növlərində istifadə olunduğundan, həmin sahələrin ehtiyaclarının da yerli istehsal hesabına ödənilməsinə nail olunacaqdır.

Sağlamlıq turizm məhsullarının brendləşməsi üçün bu məhsulların Avropa standartlarına uyğunlaşdırılması və müalicəvi təsirlərinin, effektivlik dərəcəsinin beynəlxalq sertifikatlarla akreditasiya edilməsi lazımdır. İqtisadi inkişafın hazırki mərhələsində kurort-sağlamlıq turizmi sürətlə inkişaf edir. Bu inkişaf davamlı olaraq sahə üzrə innovativ yeniliklərin öyrənilməsi və tətbiqi zərurətini ortaya qoyur. Məlumdur ki, bazardakı dəyişikliklərə ən çevik cavab verən, texnika və texnologiyaların tətbiqini qısa müddətdə həyata keçirə bilən strukturlar kiçik və orta sahibkarlıq müəssisələridir. Bu səbəbdən həmin biznes müəssisələrinin sağlamlıq turizmində fəaliyyət üçün stimullaşdırılması, onların kredit və maliyyə əlçatanlığının

təmin edilməsi labüddür. Sahibkarlıq müəssisələrini öz vəsaitlərini kurort-sağlamlıq turizminə yönləndirməsi üçün stimullaşdırmaq məqsədilə müəyyən müddəti əhatə edən vergi və gömrük güzəştləri tətbiq edilə, hüquqi prosedurlar sadələşdirilə bilər. Müalicə-sağlamlıq turizmində istifadə olunan yeni texnika və avadanlıqların ölkəyə gətirilməsilə bağlı gömrük rüsumlarına güzəştlərin edilməsi sahibkarlıq subyektlərinin bu sahəyə marağını artıracaqdır.

Az gəlirli ölkə vətəndaşlarının sağlamlıq turizmi xidmətlərindən istifadəsini təmin etmək məqsədilə “putyovka” sistemi təkmilləşdirilməlidir. Hazırda ölkəmizdə mövcud olan güzəştli yollayış sistemi tibbi turizmin ancaq bir neçə sahəsini nəzərdə tutur. Həmçinin sağlamlıq müəssisələrində yaşlı əhali qrupları üçün güzəştli xidmətlər və məhsullar paketi işlənib hazırlana bilər.

Azərbaycanın müalicə turizminin beynəlxalq arenada tanıdılmasında SMM strategiyalarının tətbiqinin də rolu böyükdür. Xüsusilə Yengicə, “Lankaran Springs Wellness Resort”, “Qalaalti Hotel & Spa”, Naftalan kurortlarının, onların məhsul və xidmətlərinin onlayn platformada təbliğ edilməsi, paket turların təklifi müsbət nəticə verə bilər.

Ölkəmizin müalicə turizminin regiondakı başlıca rəqibləri Rusiya, Gürcüstan və Türkiyə hesab edilir. Bu siyahıya MDB ölkələrindən Ukraynanı da əlavə etmək olar. Göstərilən xidmətlərin çeşidliliyinə görə, keyfiyyət göstəricilərinə görə, hotellərin ulduzlanmasına görə, müalicə prosedurlarının müxtəlifliyinə görə, tibbi xidmətlərin keyfiyyət göstəricilərinə istifadə olunan avadanlıqların müasirliyinə və sair görə qiymətlər müxtəlifdir. Gürcüstan sağlamlıq mərkəzlərində yüksək keyfiyyətli 4 və 5 ulduzlu hotellərdə qiymətlər olduqca yüksəkdir. Ukraynada və Rusiyada qiymətlər Gürcüstanla müqayisədə daha aşağı olmasına baxmayaraq, təklif edilən tibbi xidmətlərin çeşidliliyi yüksək və prosedurların sayı daha çoxdur. Türkiyədə isə yüksək keyfiyyət göstəricilərinə malik və beynəlxalq standartlara cavab verən xidmət struktunun olması, üstün səhiyyə strukturunun olması kimi faktorlar qiymətlərin yüksək olmasına aydınlıq gətirir. Məsələ ondadır ki, ölkəmizdə fəaliyyət göstərən kurort-

sağlamlıq müəssisələrində xidmətlər bütün bu ölkələrlə miqyasda daha aşağı qiymətlərlə təklif edildiyi halda turist qəbulu həmin ölkələrdən aşağıdır. Bunun bir sıra səbəbləri vardır. Azərbaycanda hotellərin ulduzlanması Nazirlər Kabineti tərəfindən həyata keçirilir və tətbiq edilən meyarlar Avropa standartları ilə az uyğunluq təşkil edir. Nəticədə, hotellərin ulduzları ilə təklif etdiyi xidmət səviyyəsi üst-üstə düşmür. Belə olan halda turistlər, qalmaq üçün hotellərə və mehmanxanalara deyil kirayə evlərə üstünlük verməli olurlar. Digər tərəfdən sağlamlıq müəssisələrində təklif edilən tibbi proseduraların sayı az olmaqla yanaşı, məhsulların çeşidliliyi də azdır. Sağlamlıq paketlərinə gündə üç dəfə qidalanma daxil edilsə də, onun təşkili aşağı səviyyədədir. Turistlərin asudə vaxtların və həftə sonlarının səmərəli dəyərləndirilməsi üçün imkanların zəif olduğu da danılmaz faktdır. Həmçinin ölkəmizdə sağlamlıq mərkəzlərinin qiymətləri ucuz olsa da, ölkəyə gəlmək üçün hava yolu qiymətləri yüksəkdir. Bu da turistlər üçün ümumi xərc paketinin yüksək olması ilə nəticələnir. Eyni məbləğdə xərclə regionun digər ölkələrində daha geniş xidmətlər və çeşidli məhsullar əldə etmək olar. Ölkəmizdə üç ulduzlu otellərin gündəlik orta qiyməti 60-80 manat, dörd ulduzlu otellərdə 130-150 manat, beş ulduzlu otellərdə isə 200-230 manat arasında dəyişir. Türkiyədə günlük orta qiymətlər otellər üzrə müvafiq olaraq 85-100 manat, 130-165 manat və 180-260 manat arasında dəyişir.

130-a yaxın turistin real şərhləri və rəyləri əasında qiymətləndirmə aparan booking.com ölkəmizdə fəaliyyət göstərən sağlamlıq müəssisələrinin, kurort-sağlamlıq mərkəzlərinin bir sıra çatışmayan və zəif tərəflərini müəyyən etmişdir. Belə ki, turistlərin rəyinə əsasən, xidmət personalının xarici dil biliklərinin qənaətbəxş olmaması, təklif edilən prosedurların azlığı, qidalanma xidmətinin zəif və nisbətən aşağı keyfiyyətdə təklif edilməsi, bir sıra texniki qüsurların olması, asudə vaxtın səmərəli istifadəsi üçün şəraitin zəif olması kimi məsələlər qeydə alınmışdır.

Marketinq tədqiqatları aparılaraq məlumatlar əldə edildikdən sonra kurort-sağlamlıq mərkəzləri üçün marketinq kompleksi təşkil olunur. Bu kompleks personal, qiymət, yer, məhsul və irəlilətmə olmaqla beş komponenti özündə birləşdirir.

Marketinq kompleksindən istifadə edilməklə bazar seqmentləri, kurort məhsullarının satış istiqamətləri, hədəf bazarlar və sair marketinq proqramı əsasında müəyyən edilir. Kurort-sağlamlıq turizmində marketinq bölmələri bazarda həm satış agenti kimi, həm də nümayəndə kimi fəaliyyət göstərirlər.

Azərbaycan Respublikası Prezidentinin qərarı ilə 2016-cı ildə on bir sektor üzrə on iki Strateji Yol Xəritəsi işlənib hazırlanmışdır. Üç inkişaf dövrünü əhatə edən bu yol xəritələrindən biri də turizm sektorunun inkişafını nəzərdə tutur. Turizm sektorunun müxtəlif istiqamətləri üzrə inkişaf istiqamətləri müəyyən edən dövlət proqramının müvafiq bəndlərinə uyğun olaraq sağlamlıq turizmin 2017-2020-ci illəri əhatə edən fəaliyyət planı işlənib hazırlanmışdır. Ötən il tətbiqi başa çatan tədbirlər planı çərçivəsində beynəlxalq sertifikatların alınması, sağlamlıq məhsullarının istehsalının genişləndirilməsi, kurort-sağlamlıq mərkəzlərinin brendləşməsi və rəqabət qabiliyyətinin artırılması məqsədilə mühüm addımlar atılmışdır. Habelə ölkəmizdə tibbi turizmin dirçəldilməsində “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı” əsasında həyata keçirilən tədbirlərin də rolu böyükdür (Aliyeva Z.L., Rzayeva M.S., 2020: 668). Proqramlar çərçivəsində:

- Kurort və sanatoriyalarda işlərin təşkili ilə bağlı qanunvericilik bazası təkmilləşdirilmiş;
- Sağlamlıq turizmində dünya təcrübəsi araşdırılmış və ölkəmizdə tətbiq imkanları qiymətləndirilmiş;
- Kurort və sanatoriya şəbəkəsinin zəruri infrastruktur ehtiyacları təmin edilmiş
- Sağlamlıq müəssisələrinin su, işiq, qaz, elektrik enerjisi ilə təminatı yaxşılaşdırılmış, kanalizasiya sisteminin bərpası və yenidənqurulması həyata keçirilmiş;
- İxtisaslı kadrla təminat səviyyəsi yüksəldilmişdir və sair.

Proqramların həyata keçirilməsi üçün maliyyə təminatı qismində yerli və xarici investorların yönləndirdiyi vəsaitləri, dövlət fondundan ayırmalar, dövlət büdcəsindən

ayırmalar və qanuni hesab edilən bütün digər yatırımlar çıxış etmişdir.

Dövlətlər səviyyəsində ikili əməkdaşlıqların qurulması hesabına sektorun dünya bazarında tanıdılması prosesi sürətləndirilə bilər. Bunun ən gözəl nümunəsini Türkiyə üzərindən görmək mümknüdür. Bir çox qonşu vəAvropa ölkələrilə tibbi turizm sahəsində əməkdaşlıq münasibəti quran Türkiyədə sağlamlıq turizmi üzrə turist qəbulunda xeyli artım müşahidə edilmişdir. 2018-ci il 18 aprel tarixində keçirilən tibbi turizm üzrə Alman-Azərbaycan biznes forumu ölkəmizin də bu istiqamətdə əsaslı addımlar atdığını göstərir. Forumda 100-dən çox yerli və alman biznes nümayəndələri iştirak etmişdir. Habelə onkologiya, kardiologiya və neyrocərrahiyyə üzrə ixtisaslaşmış həkim heyəti də foruma qatılmışdır. İkitərəfli biznes əlaqələrinin genişləndirilməsi Almaniyanın tibbi turizm təcrübəsindən istifadə üçün də əlverişli şərait yardacaqdır.

### 3.3. Qarabağ bölgəsinin müalicə turizmi sahəsindəki böyük və əhəmiyyətli rolu

Hələ ötən əsrlərdən ölkəmizin turizm cənnəti hesab edilən, səfalı havası, müalicəvi suları, zəngin təbii ehtiyyatları ilə tanınan Qarabağın 44 günlük müharibənin sonunda Ali Baş Komandanın və müzəffər Azərbaycan ordusunun qələbəsi ilə işğaldan azad edilməsi bu ərazilərin yenidənqurmasını milli iqtisadiyyatın qarşısına vəzifə olaraq qoydu. Otuz ildir ki, düşmən tapdağı altında olan bu torpaqlarda mövcud ehtiyyatlar talan edilmiş və səmərəsiz şəkildə istismar edilmişdir. Post-müharibə dövründə bu ərazilərin restrukturuzasiyası və iqtisadiyyatın bütün mümkün sektorları üzrə yenidənqurma işlərinin aparılması labüddür. Qara və əlvan metallurgiya, kənd təsərrüfatı, heyvandarlıq və digər sahələrdə olduğu kimi turizm, habelə sağlamlıq turizmində də böyük maliyyə tələb edən işlər planlanmaqdadır. Hesablamalara görə Qarabağın yenidənqurması üçün səksən milyard dollar civarında maliyyə vəsaiti tələb olunur. Bu fakt bütün sektorlar üzrə yerli və xarici investisiyaların cəlbi məsələsini də aktuallaşdırır. Biz üçüncü fəslin bu başlığında Yuxarı və Dağlıq Qarabağ regionun müalicəvi turizm imkanlarından, onların mövcud vəziyyətindən, bu resurslardan istifadə üsullarından, regionda kurort-sağlamlıq turizminin inkişaf istiqamətləri

araşdıracağıq.

Mülayim iqlim tipində yerləşən Dağlıq Qarabağ meşə örtüyünün geniş yayılması səbəbindən aeroterapiya üçün əlverişli havaya sahibdir. Ərazi çoxlu sayda termal və mineral sularla zəngindir. Şuşa, Laçın və Kəlbəcər rayonlarında temperaturu $100^0$C-ə qədər olan termal sulara rast gəlinməkdədir. Həmçinin mineral suların yer səthinə çıxdığı ərazilər vulkanik mənşəli süxurlarla örtüldüyündən bu suların kimyəvi tərkibi müalicəvi əhəmiyyəti yüksək olan birləşmələrlə zəngindir. Respublika ərazisində olan, ümumilikdə, bütün mineral suların 33%-i məhz Laçın və Kəlbəcər rayonları ərazisində yerləşir. Tərtər çayı hövzəsində yerləşən Kəlbəcər rayonunda 400-dən çox mineral su aşkar edilmişdir. Laçın rayonunun ümumi mineral su ehtiyyatı 3105 $m^3$/gün, Kəlbəcər rayonunun ehtiyyatı isə 4287 $m^3$/gün təşkil edir. Buranın müalicəvi sularını fərqləndirən əsas cəhətlər temperaturun və kimyəvi tərkibinin dəyişməməsi, debitinin isə yüksək olmasıdır.

Regionun ən böyük mineral su qaynağı Kəlbəcər və Laçın rayonları ərazisi boyu yayılan İstisu bulaqlarıdır. 1138-ci ildə baş verən zəlzələ zamanı yer səthində yaranan çatlar hesabına ortaya çıxdığı təxmin edilən bu müalicəvi suların tərkibi karbonqazlı və hipertermaldır. Tərxun, Aşağı və Yuxarı İstisu, Qoturlu və Keşdək bulaqları Kəlbəcər rayonu ərazisində, Minkənd bulağı isə Laçın rayonu ərazisində yerləşir. Bunlardan əlavə on ikiyə qədər İstisu bulağının olduğu da qeyd edilir. İstisu balneoloji kurort olmaqla 2200 metr hündürlükdə alp çəmənliklərilə örtülmüş Qarabağ yaylasında yerləşir. Bu bulaqların suyundan müalicə məqsədilə daxilə qəbul edilməklə və vanna qəbul etməklə istifadə edilir. Fiziki xüsusiyyətləri və kimyəvi tərkibinə görə Çexiyanın "Karlovı Varı" müalicəvi mineral suyu ilə oxşarlıq təşkil edir. Suyun temperaturu $60^0$C-ə yaxın olmaqla tərkibi mis, brom, mərgümüş, yod, nikel, dəmir, maqnezium, sink və sair maddələrlə zəngindir. İstisu mineral bulaqlarının suyundan mədə-bağırsaq xəstəliklərinin, xroniki qəbizlik və qastritin, uroloji, bəzi sinir sistemi xəstəliklərinin, ginekoloji xəstəliklərin, habelə maddələr mübadiləsi pozğunlunun müalicəsi məqsədilə istifadə olunur.

**Cədvəl 5: Qarabağda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi**

| Mineral mənbələrin adı | Suyun mənbədə temperaturu $^{0}C$ | Debiti min l/gün | Müalicəvi əhəmiyyəti |
|---|---|---|---|
| **Bağırsaq** | 15 | 200 | Müalicəvi süfrə suyu, ürək-damar, əsəb sistemi və ginekoloji xəstəliklər |
| **Qoturlu** | 18 | 70 | Mədə-bağırsaq və dəri xəstəlikləri |
| **Qarasu** | 21 | 700 | müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri |
| **Mozşay** | 19 | 150 | Müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri |
| **Yuxarı və Aşağı İstisu** | 61 | 3200 | Müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri, dəri xəstəlikləri, dayaq-hərəkət sistemi, öd yolları və qaraciyər xəstəlikləri |
| **Tutqun** | 43 | 600 | Müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri, dəri xəstəlikləri, dayaq-hərəkət sistemi, öd yolları və qaraciyər xəstəlikləri |
| **Minkənd** | 29 | 430 | Müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri, dəri xəstəlikləri, dayaq-hərəkət sistemi, öd yolları və qaraciyər xəstəlikləri |
| **Şırlan** | 11 | 150 | Müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri, öd kisəsi və qaraciyər xəstəlikləri |
| **Turşsu** | 9 | 300 | Müalicəvi süfrə suyu və mədə-bağırsaq xəstəlikləri, öd kisəsi və qaraciyər xəstəlikləri |

**Mənbə:** Тагиев, Ибрагимова, Бабаев (2011). Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: “Чашыоглу”, 214 с.

Cədvəldə qeyd edilən mineral mənbələrdən yalnız Minkənd Laçın rayonu ərazisində, Şırlan və Turşsu Şuşa rayonu ərazisində, qalanları isə Kəlbəcər rayonu ərazisində yerləşir. Göründüyü kimi Yuxarı və Aşağı İstisu bulaqları gün ərzində 3200 min litr yer səthinə çıxmaqla ən yüksək debitə malik mineral sudur. Bu suların tərkibinin zənginliyi və dadının acı olmaması onlardan həm süfrə suyu kimi, həm də müalicə məqsədilə istifadə edilməsinə imkan verir. Bağırsaq mineral suyu tərkibinə görə Almaniyanın Brambax suyuna oxşardır və ondan kurort-müalicə və SPA mərkəzlərində istifadə edilə bilər. Qoturlu müalicəvi suyu isə Rusiyanın Narzan və Pyatiqorsk sularına oxşardır. Qarasu mineral suyu da həmçinin Rusiyanın Pyatiqorsk

və Malkinsk sularına uyğun gəlir. Hər iki mənbədən SPA mərkəzlərində istifadə edilməsi mümkündür. Mozçayın dünyadakı analoqu Gürcüstanın Saqveri və Ukraynanın Lastoşkinskdir. Bu sulardan bütün növ müalicə-sağlamlıq mərkəzlərində istifadə edilə bilər. Tutqun, Yuxarı və Aşağı İstisu, Minkənd mineral suları kimyəvi tərkibinə və müalicə əhəmiyyətinə görə Çexiyanın dünyaca məşhur Karlovı Varı və Jeleznavodsk sularına bənzərdir. Şuşanın Turşsu və Şırlan mineral mənbələrinin analoqu isə Rusiyanın Mineralnı Vodıdır. Bu sulardan kurort-sanatoriya komplekslərində istifadə edilməsi məqsədəuyğundur.

Qarabağın müalicəvi əhəmiyyəti yüksək olan rekreasiya zonalarından biri də Şuşa ərazisində yerləşən Turşsu rekreasiya zonasıdır. Buraya yüksək debitə malik Turşsu, İsa bulağı, Şırlan, Daşaltı və Zamanpəyəsi bulaqları daxildir. Kimyəvi tərkibinə görə müxtəlif olan bu mineral sulardan yalnız Şırlan və Turşsu bulaqlarının müalicəvi əhəmiyyətə malik olduğu bildirilir. Zonaya aid olan bütün mineral sular karbon qazlı-maqneziumlu-kalsiumlu-hidrokarbonatlı-natriumludur. Bu sulardan öd kisəsi, öd yolları xəstəliklərinin, mədə-bağırsaq və qaraciyər xəstəliklərinin müalicəsində istifadə oluna bilər. Onu da qeyd edək ki, Şırlan və Turşsu bulaqlarından çıxan suların tərkibində dəmirin miqdarının çox olması onlardan qan azlığının (anemiyanın) müalicəsində istifadə edilməsinə imkan verir. Şuşa balneoloji-iqlim müalicə mərkəzi quru və təmiz havasına, ultraviyole şüaların müalicəvi xüsusiyyətlərinə görə İsveçrənin dünyaca məşhur Davos sağlamlıq mərkəzindən daha üstün hesab edilir.

Laçın rayonu ərazisində yerləşən və soyuq bulaqlar qrupuna daxil olan Əhmədli mineral suları da müalicəvi əhəmiyyətinə görə fərqlənir. Debiti (80 min l/gün) və minerallaşma dərəcəsi yüksək olmaqla tərkibi hidrokarbonatlıdır.

Bildiyimiz kimi Qarabağ zonası işğaldan əvvəlki dövrdə də müalicə-sağlamlıq turizmi istiqamətində müəyyən mənada ixtisaslaşmışdır. Təkcə termal və mineral suları ilə deyil, özünəxas alp çəmənlikləri, meşə örtüyü, təmiz havası, flora və faunası ilə turizm üçün güclü inkişaf potensialı olan bu ərazilərdə hələ vaxtilə istirahət mərkəzləri, sağlamlıq mərkəzləri, kurort və sanatoriyalar, məktəblilərin yay tətilini səmərəli

keçirməsi üçün təşkil edilən düşərgələr, istirahət evləri və sair fəaliyyət göstərmişdir. Ağdam rayonu ərazisində yerləşən Gülablı sanatoriyası, Şuşanın müalicə-sağlamlıq mərkəzləri, “Şuşa” sanatoriyası, Kəlbəcərin “İstisu” kurortları buna misaldır. Ərazinin təhlükəsizliyi təmin edildikdən sonra, ilk növbədə, buranın mövcud potensialı qiymətləndirilməli, inkişaf istiqamətləri müəyyən edilməli və inkişaf proqramları işlənib hazırlanmalıdır. Bölgədə sağlamlıq turizminin yenidən qurulması dövlət-özəl sektorun birgə fəaliyyəti ilə mümkün olacaqdır. Bu səbəbdən büdcədən ayırmalarla yanaşı daxili və xarici investisiyaların da maliyyə mənbəyi kimi çıxış etməsinə nail olunmalıdır. Qeyd edilən ehtiyyatların dünyadakı analoqlarının təhlili göstərir ki, bu mənbələr ətrafında kurortlar, müxtəlif xidmətlər təklif edən müalicə mərkəzləri, SPA və Welness mərkəzləri yaradıla bilər. Həyata keçiriləcək yenidənqurma tədbirləri nəticəsində Qarabağın yenidən ölkəmizin başlıca kurort-sağlamlıq mərkəzlərindən birinə çevriləcəyi şüphəsizdir. Bu isə öz növbəsində milli iqtisadiyyata xarici valyuta axınının genişlənməsi, ixrac məhsullarının çeşidliliyinin artırılması, qeyri-neft sektorunun güclənməsi deməkdir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat zamanı respublikamızın müalicə turizmi üçün mövcud potensialı qiymətləndirilmiş, inkişaf istiqamətləri araşdırılmış və sektorun üstün və zəif cəhətləri analiz edilmişdir. Müalicə turizmi üzrə dünya ölkələrinin təcrübələri araşdırılarkən müəyyən edilmişdir ki, bu sektorda beynəlxalq sertifikatlaşmaya və xidmət keyfiyyətinin yüksək olmasına xüsusi önəm verilir. Ölkəmizdə fəaliyyət göstərən sağlamlıq müəssisələrinin isə dünya standartlarına uyğun olduğunu təstiq edən sertifikatlarla akreditasiya olunmamışdır. Bildiyimiz kimi, ölkəmizin başlıca müalicə turizmi potensialı mineral və termal sular hesabınadır. Mülaicəvi mineral sulardan tam həcmdə və səmərəli istifadə edilməməsini aşağıda sadalanan problemlərlə izah edə bilərik:

- Mineral və termal suların ətrafında infrastrukturun zəif təminatı;
- Mürəkkəb relyefə malik ərazilərdə yerləşən bu mineral sulara gedən yolların bərbad vəziyyətdə olması;
- Sosial infrastrukturlarla zəif təminat;
- Mineral suların yerləşdiyi ərazilərin investisiya cəlbediciliyinin aşağı olması;
- Sanitar qovşaqlarla təminatın aşağı səviyyədə olması;
- Kortəbii və plansız istifadə nəticəsində anti-sanitar şəraitin yaranması.

Bənzər problemlər müalicəvi palçıq vulkanlarından istifadəni də məhdudlaşdırır.

Ölkəmizdə sağlamlıq turizminin bərpa və müalicə intensivliyi olduqca aşağıdır. Bu səbəbdən, yerli əhali müalicə turizmi ehtiyaclarını ödəmək üçün xarici ölkələrə üz tuturlar. İlk növbədə yerli əhalinin ehtiyaclarını təmin edəcək səviyyədə müalicə turizmi inkişaf etdirilməlidir. Sağlamlıq müəssisələrində təklif edilən müalicə prosedurlarının azlığı, asudə vaxtın səmərəli keçirilməsi üçün əlverişli şəraitin yaradılmaması, müasir tələblərə cavab verən sağlamlıq mərkəzlərinin sayının az olması, göstərilən xidmətlərlə müqayisədə ödənişlərin yüksək olması kimi səbəblər insanların daha çox qonşu ölkələrin müvafiq müalicə turizm mərkəzlərinə yollanmasına

səbəb olur. Müəyyən əhali qruplarına paket xidmətlərin təklif edilməsi, endirim paketlərinin hazırlanması, müalicə prosedurasına daxil olan əməliyyatların sayının artırılması, müasir tibbi avadanlıqlardan istifadənin genişləndirilməsi kimi tədbirlərin görülməsi sağlamlıq müəssisələrinin rəqabətqabiliyyətliliyini və turist qəbulunu artıra və fəaliyyətini stimullaşdıra bilər.

Aparılan araşdırmalar nəticəsində turistləri narahat edən bəzi problemlər sırasına xidmət personalının dil biliklərinin zəif olması, sifarişlərin düzgün və zamanında həyata keçirilməməsi, mərkəzlərin təklif etdiyi əlavə xidmətlərin qiymətlərinin yüksək olması daxil edilmişdir. Bu sahədə mövcud problemlərin aradan qaldırılması ixtisaslı kadrlardan istifadəni genişləndirməklə, işçilərin müəyyən təlimlərə cəlb edilməsilə, dünya təcrübəsilə tanış edilməsi və maarifləndirilməsilə mümkün ola bilər. Xidmətlərin diversifikasiyasında individual xidmətlərə yer verilməsi də mühüm addımlardan biri olacaqdır.

Müalicə-sağlamlıq turizminin inkişafı məqsədilə aşağıdakı təkliflər irəli sürülə bilər:

1. Müasir standartlara cavab verən turizm müəssisələrinin yaradılması;
2. Sağlamlıq mərkəzlərində xidmət keyfiyyətinin artırılması;
3. Kadr personalının ixtisaslaşdırılması;
4. Müasir müalicə metodlarından və texnologiyalardan istifadənin genişləndirilməsi;
5. Müalicə turizm potensialı yüksək olan ərazilərdə regional turizm mərkəzlərinin və sanitar qovşaqların yaradılması və sair.

Digər bir məsələ, ölkəmizin kurort-sağlamlıq ehtiyyatlarının dünya turizm bazarında satış və marketinq əməliyyatlarının zəif təmin olunmasıdır. Tur operatorların, turizm agentliklərinin fəaliyyəti genişləndirilməli, onlayn platformalar üzərindən hazırlanmış qısa videoçarxlar, animasiyalar hesabına kurort-sağlamlıq mərkəzləri, onların təklif etdiyi xidmətlər tanıdılmalıdır. Beynəlxalq səviyyədə həyata keçirilən turizm sərgilərində ölkəmizin sağlamlıq turizm imkanları təbliğ edilməlidir. Kurort-

sağlamlıq müəssisələrinin beynəlxalq sertifikatlarla akreditasiyası təmin edilməlidir.

Sahibkarlıq subyektlərinin öz maliyyə vəsaitlərini müalicə turizminə yönləndirməsini stimullaşdırmaq məqsədilə müəyyən vergi və gömrük güzəştləri edilə bilər. Həmçinin müasir tibbi texnika və avadanlıqların ölkəyə gətirilməsinin böyük həcmdə xərc tələb etdiyini nəzərə alaraq, sektor üzrə qiymətlərin kəskin qalxmaması üçün bu məhsulların gətirilməsinə gömrük güzəştlərinin tətbiqi sahibkarları stimullaşdıracaqdır.

İqtisadi fəaliyyətin istənilən istiqaməti üzrə sahibkarlığın mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, ölkəmizdə sağlamlıq turizmi sektorunda fəaliyyət göstərən sahibkarlıq müəssisələrinin iqtisadi imkanlarından səmərəli istifadənin təkmilləşdirilməsinə, təsərrüfat mexnizmlərinin tədqiq edilməsinə və sağlamlıq turizminin yeni inkişaf mərhələsində fəaliyyətin təkmilləşməsinə yeni səmərəli yanaşmaların ortaya qoyulmasına ehtiyac olduğu aydın müşahidə edilir.

Müalicəvi əhəmiyyətə malik mineral resursların istehsala cəlb etməklə, onlardan daha səmərəli istifadəni təmin etmək olar. Məsələn, müalicəvi süfrə suyu kimi istifadə oluna bilən mineral suların qablaşdırılması, müalicəvi palçığın və neftin kosmetoloji məhsulların istehsalında istifadə edilməsi ixrac məhsullarının diversifikasiyasını təmin edəcəkdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. “Azərbaycan Respublikası Strateji Yol Xəritəsi: İxtisaslaşmış turizm sənayesinin inkişafına dair” (06.12.2016), Bakı, 100 səh.
2. “Azərbaycan Respublikası regionlarının 2019-2033-cü illərdə sosial –iqtisadi inkişafı Dövlət Proqramı” (2019). Bakı, “Avrasiya Press”.
3. “Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı” (07.02.2009), Bakı, “Respublika” qəzeti http:/www.e-qanun.az/framework/16143
4. “Azərbaycanda sağlamlıq turizmi –cari vəziyyət və inkişaf perspektivləri” (2021). Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sifarişi ilə hazırlanmışdır.
5. “Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında” Azərbaycan Respublikasının Qanunu (01.04.2008) http:/www.e-qanun.az/framework/14606
6. Abadov M., (2014). Azərbaycan turizmi və onun inkişaf problemləri. Bakı, “Şərq-Qərb” nəşriyyatı, 248 səh.
7. Ağakişiyev Ə.R., Soltanova H.B., Qasımova M.S., (2017). Azərbaycanda kurort təsərrüfatı. Bakı, Bakı Dövlət Universiteti – Dərslik, 215 səh.
8. Dərgahov V.S., (2008). Rekreasiya-turizm ehtiyatları. Bakı, “MBM”, 214 səh.
9. Əfəndiyeva N., Hüseynov İ., (2007). Turizmin əsasları. Bakı, “Mars-print” nəşriyyat-poliqrafiya müəssisəsi, 442 səh.
10. Əlirzayev Ə.Q., (2010). Turizm iqtisadiyyatı və idarəedilməsi. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 529 səh.
11. İbrahimli E., (2017). Turizmin maliyyə problemləri. Bakı, Azərbaycan Dövlət İqtisad Universiteti, 73 səh.

12. Kərimov R.N., Dərgahov V.S., (2011). Azərbaycanda kurort-müalicə turizmi: inkişaf tarixi, müasir vəziyyət, problemlər və perspektivlər. Bakı, "Azərbaycan Coğrafiya Cəmiyyətinin Əsərləri – XVII cild", səh 182-191.

13. Quliyev R., (2021). Azərbaycanda sağlamlıq-müalicə turizm müəssisələrinin idarəedilməsinin təkmilləşdirilməsi. Bakı, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, 186 səh.

14. Mirzəyev A., (2016). Azərbaycanda turizm potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətləri. Bakı, Azərbaycan Turizm və Menecment Universiteti, 166 səh.

15. Məmmədova N., (2015). Azərbaycanda turizm sisteminin inkişafı. Bakı "İqtisad Universiteti" nəşriyyatı, 83 səh.

16. Osmanova G., (2017). Turizmin inkişafının konseptual əsasları. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 76 səh.

17. Soltanova H., (2015). Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı, "Bakı Dövlət Universiteti" nəşriyyatı, 475 səh.

18. Tağıyev İ.İ., Babayev N.İ., (2018). Azərbaycanın mineral su ehtiyatlarının müasir vəziyyəti və onlardan səmərəli istifadənin perspektivliyi. Bakı, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəşriyyatı, 239 səh.

## Türk dilində

1. Akarcalı S., Tontuş Ö., (2016). Tüm yönleriyle sağlık turizmi: Azerbaycan ülke raporu. Ankara, "Saturk" yayınları, 263 sayfa.

2. Aslan A., Karakaş A., Esen Ş., (2019). Turizm teşvik ve desteklerinin paydaşların bakış açısıyla değerlendirilmesi. İstanbul, "Dergipak", cilt 3, sayı 10, sayfa 366-375.

3. Gurbanova R., (2018). Azerbaycan'da sağlık turizmi işletmelerinin tercihine etki eden faktörler: Naftalan örneği. Bakü, Azerbaycan Devlet İktisat Üniversitesi, 123 səh.

4. Hacızade E., (2019). Turizm yatırım projesi:Tatil köyü örneği. Bakü, Azerbaycan Devlet İktisat Üniversiteti, 59 sayfa.

5. Hesenov T., Seferov R., (2016). Azerbaycanın turizm potansiyeli ve turizm etkinliklerinin değerlendirilmesi. İzmir, "Türkiyat Araşdırmaları" dergisi, sayfa 255-271.

6. Növresli T., (2010). Azerbaycan turizm potansiyelinin kalkınma amaçlı değerlendirilmesi. İzmir, "Dokuz Eylül Üniversitesi", 298 sayfa.

7. Şanlıoğlu Ö., Özcan E., (2017). Türkiye'de uygulanan turizm teşvik politikalari ve sonuçlari üzerine bir değerlendirme. İstanbul, "Dergipak", cilt 7, sayı 2, sayfa 98-118.

**Rus dilində**

1. Тагиев, Ибрагимова, Бабаев (2011). Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: "Чашыоглу", 214 с.

**İngilis dilində**

1. Aliyeva Z.L., Rzayeva M.S., (2020). The main directions of the development of tourism in the economy of Azerbaijan. Baku, 55th International Scientific Conference on Economic and Social Development, pages 663-673.

2. Awedyk M., (2016) "Foresight as a Tool in Regional Tourism Development – a Case Study of Tourism Foresight Project" Ekonomiczne Problemy Turystyki 33:81-92 https://www.researchgate.net/publication/317122331_Foresight_as_a_Tool_in_Regional_Tourism_Development_-_a_Case_Study_of_Tourism_Foresight_Project).

3. Bayramov V., (2011). Policy report on tourism sector in Azerbaijan. Baku, CESD Press, 16 pages.

4. Connell J., (2012). Contemporary medical tourism: Conceptualisation, culture and commodification. Ottova, Tourism Management, volume 34, pp. 1–13.

5. Connell J., (2013) "Medical Tourism in the Caribbean Islands: A Cure for Economies in Crisis?" Island Studies Journal 8(1):115-130 https://www.researchgate.net/publication/285974417_Medical_Tourism_in_the_Caribbean_Islands_A_Cure_for_Economies_in_Crisis

6. Dargaxov V.S, Kerimov R.N., (2014). Investment opportunities of tourism industry in Azerbaijan and its regions. Birmingham, "European International journal of science and Technology", pages.165-172

7. Hashimli M., (2019). Azerbaijan's tourism sector – opportunities and obstacles. Baku, CESD Press, 33 pages.

8. Lancaster K., (2020) "Medical Tourism: What is it, What are its Benefits & is it Worth It?" https://hivelife.com/medical-tourism/

9. Smriti C., (2020) "2 Types of Tourism: International and Domestic Tourism" https://www.yourarticlelibrary.com/tourism/2-types-of-tourism-international-and-domestic-tourism/14100

10. World Tourism Organization (2015). Policy and practice for Global Tourism. Madrid, UNWTO, 258 pages.

## İnternet resursları

1. http://dosyamerkez.saglik.gov.tr
2. http://medicaltourism.com/Forms/price-comparison.aspx
3. http://www.market-width.com/Tourism-Industry.htm Market Width - Travel Touris Industries & Markets "Tourism Industry: 9 Aspects of Industry of Holidaying & Sightseeing", 2021
4. https://bakuresearchinstitute.org/az/azerbaijans-earnings-from-foreign-tourism-why-was-2018-unsuccessful/
5. https://globalwellnessinstitute.org/what-is-wellness/what-is-wellness-tourism/
6. https://greentumble.com/positive-impacts-of-tourism-on-environment/ Green Tumble "Positive Impacts of Tourism on the Environment", 2021

7. https://healthcare-digital.com/hospitals/top-5-countries-medical-tourism Healthycare "Top 5 Countries For Medical Tourism" 17.05.2020

8. https://medtourpress.ir/en/why-medical-tourism-in-brazil/ Medtourpress "Why Medical Tourism In Brazil?", 2021

9. https://opentextbc.ca/introtourism2e/chapter/1-x-impacts-of-tourism/ BC campus "1.5 Impacts of Tourism", 2021

10. https://tourism.gov.az/pages/tourism_investment_opportunities

11. https://tourism.gov.az/uploads/documents/sa%C4%9Flaml%C4%B1q_turizmi_haqq%C4%B1nda__hesabat_dta.pdf, 2021

12. https://www.ceicdata.com/en/indicator/azerbaijan/tourism-revenue-growth

13. https://www.health-tourism.com/medical-tourism/history/ Healthy-tourism "The History of Medical Tourism", 2021

14. https://www.madrehealthcare.com/top-10-types-of-medical-tourism/ Madre "Top 10 Types of Medical Tourism – How Medical Tourism Business Works", 2020

15. https://www.oecd.org/els/health-systems/48723982pdf

16. https://www.stat.gov.az/source/healthcare/, 2021

17. https://www.statista.com/statistics/1013813/leading-medical-tourism-countries-value/

18. https://www.trade.gov/country-commercial-guides/azerbaijan-travel-and-tourism

19. https://www.unwto.org/green-investments-for-sustainable-tourism

20. www.oits-isto.org/oits/files/resources/379.pdf

## Cədvəllərin siyahısı


| | | |
|---|---|---|
| **Cədvəl 1:** | Kurort Səhmdar Cəmiyyətinin tabeliyində olan sanatoriyalardan istifadə edənlərin inkişaf dinamikası (nəfərlə)............................................................ | 36 |
| **Cədvəl 2:** | Ölkəmizə sağlamlıq məqsədilə gələn turistlərin illər üzrə dinamikası............. | 37 |
| **Cədvəl 3:** | Azərbaycanın istirahət mərkəzlərinin bəzi mikroiqlim göstəriciləri................. | 38 |
| **Cədvəl 4:** | Sanatoriya-kurort müəssisələri, istirahət evləri və istirahət bazalarının 2014-2020-ci illər üçün inkişaf dinamikası............................................................ | 39 |
| **Cədvəl 5:** | Qarabağda debiti yüksək olan mineral sular və dünyada analoqlarının müqayisəsi........................................................................................... | 60 |